

“Zəngəzur dəhlizinin açılması regional və qlobal əməkdaşlıqda mühüm rol oynayacaq”

6

# Prezident İlham Əliyev

2



## yeni Biləcəri lokomotiv deposunun açılışında iştirak edib

№ 212 (6412) 20 noyabr 2021-ci il. Qiymәti 40 qәpik

# “Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!”



4

*"YAP, sözün əsl mənasında, Azərbaycanın dövlətçilik maraqlarının etibarlı və qətiyyətli müdafiəçisinə çevrildi"*

## Uşaqlar təhlükəsiz internetlə necə təmin olunmalıdır?

16

*Gündəlik həyatda böyüklər üçün zəruri olan internetdən istifadə, xüsusilə uşaqlıqda lazımi nəzarət təmin edilmədikdə mühüm problemləri də gətirir. Ailələrin internetdən istifadələrinin şüurlu olması və uşaqların rəqəmsal dünya ilə əlaqələrini məhdudlaşdırmaq üçün lazım gəldikdə ...*





**Azərbaycan ordusu Göyçə yaxınlığındadır - Putinin açıqlaması erməniləri şoka saldı**

*47 yaşlı ispan aktrisa Penelopa Krus "Variety" jurnalının yeni nömrəsinin qəhrəmanı olub.*

16




15



**“Ermənilərin özləri döyüşmək istəmirlər, lakin KTMT-ni köməyə çağırırlar”**

*“Kadr sıçrayışı ciddi siyasi böhranın əlamətidir. Ermənistanda müdafiə və xarici işlər nazirlərinin tez-tez dəyişməsi siyasi etimad böhranından xəbər verir”.*

# Qarakənd faciəsindən 30 il ötür



Azərbaycan xalqı ermənilər tərəfindən zaman-zaman soyqırıma, terrora məruz qalıb. Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir. Tarixə diqqət etsək görərik ki, iki yüz ilə yaxın bir dövrdə təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza...

9



**“Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarıdır”**



**“Ermənistan hakimiyyətinin devrilməsi 2-3 həftəlik işdir”**

14

*“Sözsüz ki, son vaxtlar Ermənistan dövlətinin daxilində revanşist qüvvələrin hakimiyyətə göstərdiyi təzyiqlər fonunda ...*



**Əlillərin, qazilərin müavinətləri kəsilirmi?**

11

*Son günlərdə bəzi KİV-lərdə və sosial mediada həm də xüsusi olaraq şişirdilmiş bir rəqəmlə guya "200 min şəxsin əlilliyinin ləğv edildiyi, pensiyasının...*

# Prezident İlham Əliyev yeni Biləcəri lokomotiv deposunun açılışında iştirak edib



***"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) yeni Biləcəri lokomotiv deposunun açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.***

QSC-nin sədri Cavid Qurbanov Prezident İlham Əliyevə yeni Biləcəri lokomotiv deposunda yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, yeni depoda lokomotivlərin texniki baxışı və təmiri işləri aparılacaq. MDB məkanında ilk dəfə Azərbaycanda yaradılan bu cür deponun istifadəyə verilməsi 4-cü sənaye inqilabına keçidlə bağlı atılan addımlardan biridir. Deponun üzərində günəş panelləri quraşdırılıb ki, alınan enerji depoda istifadə olunur. Burada zəruri infrastruktur yaradılıb, dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıq quraşdırılıb. Deponun tikintisi "Dəyişən cərəyanla işləyən 50 lokomotiv üçün iki deponun - Biləcəri və Gəncə lokomotiv depolarının tikintisi" layihəsi çərçivəsində həyata keçirilib. Yeni depoların nəzərdə tutulduğu dəyişən cərəyanlı 40 yük lokomotivi və ikili elektrik təchizatı sistemində işləyən 10 sərnişin lokomotivi dünyanın aparıcı şirkətlərinə sifariş edilib. 28-i yük və 10-u sərnişin lokomotivi olmaqla 38 müasir "Alstom" lokomotivi artıq Azərbaycana gətirilib. Ümumilikdə, bu deponun istifadəyə verilməsi enerji resurslarının qənaətinə, istismarın asanlaşmasına, qatarların hərəkət sürətinin artırılmasına və nəticə etibarilə yük və sərnişin daşımalarında səmərəlilik göstəricilərinin yaxşılaşdırılmasına, lokomotivlərin gücünün çoxalmasına imkan yaradacaq. Depoda xarici ölkələrdə təlim keçmiş 150-yə yaxın yüksək ixtisaslı işçi çalışacaq.

Dövlətimizin başçısı yeni deponun açılışını edib.



Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, digər sahələrdə olduğu kimi nəhəng infrastruktur və nəqliyyat layihələrinin icrası istiqamətində də çox böyük işlər görülüb. Ən önəmlisi odur ki, bütün bu işlər dünyada davam edən pandemiya və iqtisadi-maliyyə çətinlikləri fonunda həyata keçirilir. İcra olunan layihələr arasında Azərbaycanda dəmir yolu nəqliyyatı infrastrukturunun inkişaf etdirilməsi və təkmilləşdirilməsi, dəmir yollarında hərəkətin idarə edilməsi prosesinin müasir səviyyəyə çatdırılması, dəmir yolu nəqliyyat vasitələri parkının müasirləşdirilməsi və bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər də böyük önəm daşıyır. Bu işlər Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovuşduğu coğrafi məkan kimi Azərbaycanın regionda rolunu və yerini daha da möhkəmləndirir, iqtisadi və nəqliyyat-logistika potensialını əhəmiyyətli dərəcədə artırır.

Onu da qeyd edək ki, dəmir yolu infrastrukturunun müasirləşdirilməsi baxımından yeni Biləcəri lokomotiv deposu da mühüm rol oynayacaq.











# YAP beynəlxalq arenada böyük nüfuza malikdir

## YAP Sədrinin müavini onlayn formatda brifinqdə iştirak edib

Noyabrın 19-da 19-cu çağırış Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin 6-cı Plenar İclasının yekunlarına dair onlayn formatda brifinq keçirilib. SİA-nın məlumatına görə, dünyanın müxtəlif ölkələrinin aparıcı siyasi partiyalarının qatıldığı brifinqdə Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılığı ilə 40 nəfərə yaxın YAP üzvü iştirak edib.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Qo Yejounun moderatorluq etdiyi tədbirdə əvvəlcə videoçarx təqdim olunub. Sonra Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao proqram xarakterli çıxış edib.

Daha sonra çinli ekspertlər tərəfindən tədbir iştirakçılarına 19-cu çağırış ÇKP Mərkəzi Komitəsinin 6-cı Plenar İclası ilə bağlı məlumat verilib. Sonda ekspertlər iştirakçıların suallarını cavablandırıblar.

***Noyabrın 19-da Yeni Azərbaycan Partiyasının təsis olunmasının 29-cu ildönümü ilə əlaqədar partiyanın nümayəndələri Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycanın memarı və qurucusu, YAP-ın yaradıcısı, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.***

# YAP-ın nümayəndələri ulu öndər Heydər Əliyevin məzarını, Şəhidlər Xiyabanını və ”Türk şəhidliyi” abidəsini ziyarət ediblər







Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Daha sonra Şəhidlər xiyabanına gələn Yeni Azərbaycan Partiyasının üzvləri tərəfindən Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsinə ehtiram ifadə edilib, məzarları üzərinə güllər düzülərək, ”Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub. Həmçinin, ”Türk şəhidliyi” abidəsi də ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.





# “Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!”

## *YAP Mərkəzi Aparatında bu mövzuda konfrans keçirilib*





***Noyabrın 19-da YAP Mərkəzi Aparatında Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümünə həsr edilmiş ”Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır” mövzusunda konfrans keçirilib.***

*"YAP, sözün əsl mənasında, Azərbaycanın dövlətçilik maraqlarının etibarlı və qətiyyətli müdafiəçisinə çevrildi"*





Konfransda əvvəlcə Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümünə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun təklifi ilə müasir, müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının - şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tahir Budaqov bildirib ki, müasir, müstəqil Azərbaycan dövləti bugünkü inkişaf, intibah, yüksəliş və tərəqqi mərhələsinə asanlıqla çatmayıb. Müstəqilliyin ilk illərinin ictimai-siyasi proseslərinə, ümumi mənzərəsinə nəzər saldıqda görürük ki, Azərbaycan xalqı və dövləti üçün taleyüklü məsələlərin həlli məhz lider amili, onun qətiyyəti və uğurlu siyasəti, xalq-lider birliyi sayəsində mümkün olmuşdur. Dövrün reallıqları fonunda müstəsna tarixi-siyasi əhəmiyyətə malik olan və haqlı olaraq müstəqil dövlətçiliyimizin dönüş nöqtələrindən biri hesab edilən hadisələrdən biri də Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. YAP siyasi zərurətdən və ictimai tələb əsasında yaranmış partiyadır. O zaman Azərbaycanda hakimiyyətin milli maraqlara zidd siyasəti nəticəsində ölkədə ictimai-siyasi böhran, iqtisadi tənəzzül hökm sürür, respublikamız regional və beynəlxalq səviyyədə, demək olar ki, geosiyasi təcrid vəziyyətində idi. Bütün bunlar hətta Azərbaycanın formal xarakter daşıyan müstəqilliyinin itirilməsi təhlükəsini aktuallaşdırmışdı. Belə bir şəraitdə Azərbaycan xalqı ümidini məhz müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasətçi Heydər Əliyevə bağlamışdı. 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı Ona müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdi. Ümummilli lider Heydər Əliyev isə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq vermişdi. Məhz bundan sonra 1992-ci il noyabrın 21-də Naxçıvanda YAP-ın təsis konfransının keçirilməsi, ulu öndər Heydər Əliyevin partiyanın Sədri seçilməsi ölkəmizin parlaq gələcəyini müəyyənləşdirən çox mühüm - əlamətdar hadisə oldu.

YAP Sədrinin müavini qeyd edib ki, güclü Lider ətrafında yaradılan Yeni Azərbaycan Partiyası qısa müddət ərzində siyasi səhnədə layiqli yer tutdu və xalqı öz ətrafında sıx birləşdirdi: ”Bu, təsadüfi deyildi. Çünki ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının fəaliyyət konsepsiyasını və prioritetlərini məhz dövrün çağırışlarına, reallıqlarına uyğun müəyyənləşdirdi, YAP, sözün əsl mənasında, Azərbaycanın dövlətçilik maraqlarının etibarlı və qətiyyətli müdafiəçisinə çevrildi. Digər tərəfdən, Ulu Öndərin yüksək nüfuzu, xalqın Ona böyük inam və etimadı Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində yüksəlişini təmin edən mühüm faktorlardan birinə çevrildi. Partiyamız qısa müddət ərzində Azərbaycan xalqının iradəsi əsasında hakimiyyətə gələrək ölkəmizin həyatında keyfiyyətcə və mahiyyətcə tamamilə yeni mərhələnin başlanmasını, yeni Azərbaycan quruculuğunun həyata keçirilməsini təmin etdi.

Hələ yarandığı ilk vaxtlarda öz məqsədyönlü, nümunəvi fəaliyyəti ilə müxalifətçiliyin sivil qaydalarını və normalarını müəyyənləşdirən Yeni Azərbaycan Partiyası yeni siyasi mədəniyyət nümunəsi ortaya qoydu. YAP nümayiş etdirdi ki, müxalifətçilik dövlətin maraqlarına zidd mövqe tutmaq deyil və iqtidar partiyası kimi fəaliyyət göstərmək, hər şeydən əvvəl, məhz xalqa xidmət göstərmək, onun mənafeyini qorumaq prinsiplərinə əsaslanmalıdır”.

*Ardı Səh. 5*

# “Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!”

## *YAP Mərkəzi Aparatında bu mövzuda konfrans keçirilib*




*"Azərbaycan xalqı və dövləti üçün taleyüklü məsələlərin həlli məhz lider amili, onun qətiyyəti və uğurlu siyasəti, xalq-lider birliyi sayəsində mümkün olmuşdur"*




Əvvəli-Səh-4

Qeyd olunub ki, Ümummilli Liderin siyasi mirası olan YAP ötən 29 il ərzində nümunəvi, zəngin və şərəfli inkişaf yolu keçmiş, siyasi ləyaqət etalonu yaratmışdır. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, Heydər Əliyev ideyaları əsasında tarixi təşəbbüslərə və nailiyyətlərə imza atmışdır. Məhz bunun nəticəsidir ki, Cənubi Qafqazın ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının nüfuzu davamlı olaraq artır. Sıralarında 800 minə yaxın vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən partiyamızın bütün seçkilərdə möhtəşəm qələbə qazanaraq, sözün əsl mənasında, qələbələr partiyasına çevrilməsi bunun bariz nümunəsi - real təsdiqidir. Azərbaycan Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevin qeyd etdiyi kimi: ”Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq”.

Vurğulanıb ki, ümumxalq partiyası olan YAP-ın fəaliyyətinin səmərəliliyini təmin edən vacib faktorlardan biri partiyanın davamlı islahatlar çərçivəsində təkmilləşməsidir: ”Xüsusilə də, partiyanın qurultaylarında qəbul edilən qərarlar YAP-ın fəaliyyətində yeni keyfiyyət dəyişikliklərini təmin edən çox mühüm amildir. Xüsusi vurğulamaq gərəkdir ki, Mehriban xanım Əliyevanın partiyanın 2013-cü ildə keçirilmiş V Qurultayında YAP Sədrinin müavini, 2021-ci il mart ayının 5-də baş tutmuş VII Qurultayında isə YAP Sədrinin birinci müavini təyin olunması partiyamız və bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, YAP-ın və dövlətimizin daha da güclənməsinə xidmət edən mötəbər hadisədir. Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyasının Sədrinin müavini statusunda gördüyü işlər dövlətçilik maraqlarının qorunması və milli həmrəyliyin gücləndirilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb etmişdir və şübhəsiz ki, Onun birinci müavin kimi fəaliyyəti ölkəmizin və partiyamızın daha da güclənməsinə xidmət edəcəkdir”.










Azərbaycanın milli tərəqqinin yeni mərhələsinə qədəm qoyduğunu deyən YAP Mərkəzi Aparatının rəhbəri diqqətə çatdırıb ki, Azərbaycan mühüm strateji təklif və təşəbbüslərlə çıxış edən, qətiyyətli mövqeyini davam etdirən qalib Azərbaycanın yaratdığı yeni geostrateji reallıqlar regionda, türk dünyasında və qlobal miqyasda yüksək dəyərləndirilir: ”Yeri gəlmişkən, Prezident İlham Əliyevin ”Türk Dünyasının Ali Ordeni” ilə təltif olunmağı da bu baxımdan əlamətdardır. Bu, cənab İlham Əliyevin müdrik Lider, qətiyyətli dövlət başçısı və Müzəffər Ali Baş Komandan kimi rəhbərliyi ilə Qarabağın işğaldan azad edilməsinin, Onun qlobal problemlərlə mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə mühüm töhfələrinin, Türk Şurası, BMT, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində ümumbəşəri xarakter daşıyan təşəbbüslərinin dünya miqyasında olduqca yüksək qiymətləndirildiyini bir daha təsdiqləyir.

Ümumiyyətlə, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbənin qazanılmasından, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra Azərbaycanın qarşısında yeni çağırışlar meydana çıxıb. Bu baxımdan xüsusi vurğulamaq istəyirəm ki, tarixi Zəfərdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda YAP-ın cari il martın 5-də baş tutmuş VII qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur. Qurultayda partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə imkan yaradacaqdır. Şübhə yoxdur ki, Yeni Azərbaycan Partiyası yeni reallıqlar fonunda dövlətin qətiyyətli siyasətinə, xalqın həmrəyliyinə paralel olaraq öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə Azərbaycanın növbəti tarixi nailiyyətlər qazanmasına və yeni strateji zirvələr fəth etməsinə layiqli töhfəsini verəcəkdir!”.

Tahir Budaqov YAP-ın təsis edilməsinin 29-cu ildönümü münasibətilə bütün partiya üzvlərini təbrik edib, Heydər Əliyev yolu naminə fəaliyyətlərində uğurlar arzulayıb.

Konfransda ”Ulu Öndərin xilaskarlıq missiyası” mövzusunda çıxış edən YAP Sədrinin müavini Əli Əhmədov bu əlamətdar gün münasibətilə partiyanın Sədri, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevi və bütün partiya üzvlərini təbrik edib. YAP-ın yaradılmasının Azərbaycanın müasir tarixinin möhtəşəm və ən əlamətdar hadisələrindən biri olduğunu deyən Əli Əhmədov qeyd edib ki, 29 il bundan əvvəl yenicə müstəqilliyinə qovuşmuş Azərbaycan o zaman ölkəyə rəhbərlik edənlərin bacarıqsızlığı və bağışlanmaz səhvləri ucbatından ağır böhran içərisində boğulur, ölkədə qeyri-sabitlik tüğyan edir, torpaqlarımız Ermənistan tərəfindən işğal olunurdu. O bildirib: ”Azərbaycan vətəndaşları əmin idilər ki, cəmiyyətimizin özünəqayıdışının təmin edilməsi qüdrətli şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində mümkün ola bilər. Bu da Azərbaycanı məhv olmaqdan xilas etmək üçün Yeni Azərbaycan Partiyasının yaranması vasitəsilə Heydər Əliyevin hakimiyyətə qayıtmasını təmin etməkdən ibarət idi. Buna görə də 29 il əvvəl Yeni Azərbaycan Partiyasının təsis olunmasını Azərbaycan cəmiyyəti, əslində, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışının başlanğıcı, bununla əlaqədar yaranmış böyük xalq hərəkatı kimi dərk edir. Təsadüfi deyil ki, Yeni Azərbaycan Partiyası təsis ediləndən təxminən yarım il sonra partiyanın yaradıcısı və Sədri Heydər Əliyev xalqın istəyi, təkidli tələbi ilə hakimiyyətə qayıtdı, bununla da Azərbaycan böhrandan xilas olmaq imkanı qazandı. Azərbaycan tarixinin yeni mərhələsi başlandı. İlk növbədə, böhran, qeyri-sabitlik cilovlandı, genişmiqyaslı və hərtərəfli islahatlar nəticəsində böyük bir inkişaf strategiyasına start verildi. Bu inkişaf strategiyası nəticəsində mühüm nəticələr əldə olundu. Ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda çox ciddi iqtisadi, sosial inkişaf baş verdi, ölkəmizin siması bütövlükdə yeniləndi. Bu strategiya 30 ilə yaxın işğal altında olan torpaqlarımızın Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz tərəfindən azad edilməsi ilə nəticələndi. Düşünürəm ki, Yeni Azərbaycan Partiyası uğurlu taleyi olan siyasi təşkilat hesab edilə bilər. Eyni zamanda, YAP iqtidarı qısa müddət ərzində Azərbaycanı dünyada ən uğurlu gənc dövlətə çevirdi”.

Ardı Səh. 6

# "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!"

## YAP Mərkəzi Aparatında bu mövzuda konfrans keçirilib







Əvvəli-Səh-5

Bütün bu nailiyyətlərin bir partiyanın öz tarixi missiyasını və xalq qarşısında öz üzərinə götürdüyü öhdəlikləri layiqincə, ləyaqətlə yerinə yetirməsinə sübut kimi qiymətləndirilə biləcəyini deyən YAP Sədrinin müavini qeyd edib: "Yeni Azərbaycan Partiyası indiyə kimi qalibiyyətlər, qələbələr, zəfərlər partiyası kimi fəaliyyət göstərib və onun bundan sonrakı fəaliyyəti də yeni-yeni nailiyyətlərlə müşayiət olunacaq. Azərbaycan ümummilli lider Heydər Əliyevin ideyaları, Prezident İlham Əliyevin rəhbərliyi ilə daim inkişaf edəcək".



YAP Veteranlar Şurasının üzvü Şahlar Əsgərov isə "Yeni Azərbaycan Partiyasının təsis edilməsinə tarixi zərurət prizmasından baxış" mövzusunda çıxış edib. 1990-cı illərin əvvəlində ölkədə mürəkkəb proseslərin baş verdiyini deyən Ş.Əsgərov bildirib ki, respublikamızda hökm sürən qeyri-sabitlik, tənəzzül ziyalıları ciddi narahat edirdi. "Hamı bilirdi ki, Azərbaycanı Heydər Əliyev kimi böyük dövlət xadimi xilas edə bilər. İnsanların ürəyində Heydər Əliyevə böyük sevgi var idi. Belə bir şəraitdə bir qrup ziyalı olaraq qərar gəldik ki, vəziyyətlə əlaqədar Heydər Əliyevə müraciət edək. 91-lərin müraciətinin adı belə idi: "Azərbaycan Sizin sözünüzü gözləyir". Heydər Əliyev bu məktuba bir neçə gün sonra cavab verdi. Həmin cavab məktubu Azərbaycanın gələcəyinə baxış idi. Heydər Əliyev partiya yaradılmasına razılıq verdikdən sonra isə YAP-ın təsis edilməsi ilə bağlı işlərə başlanıldı. 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Altı aya yaxın müddətdə partiyaya 60 minə yaxın insan üzv olmuşdu. Bunun səbəbi isə partiyaya Heydər Əliyev kimi böyük şəxsiyyətin rəhbərlik etməsi idi. O zaman insanlar bu partiyaya "Heydər Əliyev partiyası" deyirdilər. Biz partiyanı yaradanda imkanlarımız, ofisimiz demək olar ki, yox idi. İndi isə YAP böyük gücə çevrilib, onun 800 minə yaxın üzvü var. Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız böyük uğurlara imza atır", - deyə o qeyd edib.

Tədbirdə "Azərbaycançılıq fəlsəfəsinin müəllifi" mövzusunda çıxış edən YAP İdarə Heyətinin üzvü Elmar Qasımov bildirib ki, hər bir dövlətin ərazi, iqtisadi, milli əsasları olduğu kimi, ideoloji əsasları da olmalıdır. Onun sözlərinə görə, ulu öndər Heydər Əliyev azərbaycançılıq fəlsəfəsinin əsaslarını hələ sovet dövründə müəyyən edib. 1978-ci ildə Ulu Öndərin qətiyyəti nəticəsində Azərbaycan dili dövlət dili kimi Azərbaycan SSR-in Konstitusiyasına daxil edildi. Bu və digər addımlar azərbaycançılıq fəlsəfəsini özündə aydın şəkildə ifadə edirdi.

E.Qasımovun sözlərinə görə, 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycan dövlətçiliyini xilas etməklə yanaşı, xalqımızın vahid ideologiya ətrafında birləşdirilməsinin əsasını qoydu. Ulu öndər Heydər Əliyevin irəli sürdüyü milli ideya ölkəmizin bütün vətəndaşlarını, dünya azərbaycanlılarını və Azərbaycana bağlı bütün insanları bir məqsəd, bir ideya ətrafında birləşdirə bildi. Bu, vahid bir dövlətin formalaşmasında, müasir, güclü Azərbaycan ölkəsinin yaranmasında ən böyük rola malik olan azərbaycançılıq ideyası idi. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətindən qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Ulu öndər Heydər Əliyev azərbaycançılığı milli ideyaya çevirməklə ölkənin daxilində yaşayan onlarla xalqı bu ideyanın ətrafında birləşdirməyə, milli, etnik ayrı-seçkiliyin aradan qaldırılmasına, ölkədə ictimai-siyasi sabitliyi yaratmağa, dövlətin inkişaf konsepsiyasını qurmağa nail oldu. Məhz bu ideologiya ətrafında sıx birləşən Azərbaycan xalqı vahid ideya-dövlətin inkişafı ideyasını prioritet olaraq qarşısına qoydu və bütün enerjisini bu istiqamətə yönəltdi. Bu, həm də müasir, qloballaşan dünyada milli kimliyimizin tanınması istiqamətində mühüm addım idi".

YAP İdarə Heyətinin üzvü bu gün Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi bu yolu uğurla davam etdirdiyini vurğulayıb.

Konfransda YAP Gənclər Birliyinin sədr müavini Sevinc Qasımova "Müasir müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir" mövzusunda çıxış edib. S.Qasımova bildirib ki, ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra dövlət müstəqilliyi qorunub saxlanıldı, müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi geniş vüsət aldı, ölüm hökmü və senzura ləğv edildi, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu, milli-mənəvi sərvətlərimizə, dilimizə, dinimizə, tarixi irsimizə qayğı dövlət siyasəti səviyyəsinə qaldırıldı. O qeyd edib ki, bu gün üzvü olduğumuz Yeni Azərbaycan Partiyası minlərlə Azərbaycan vətəndaşını öz ətrafında birləşdirərək dövlətin siyasi sütunu rolunda çıxış edir. Partiyamızın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası zamanın tələbinə uyğun olaraq həm kəmiyyət, həm də keyfiyyət baxımında böyüyür, müasirləşir və güclənir. Bu şərəfli işdə biz gənclərin də iştirak etməsi bizim üçün olduqca qürurvericidir.

Konfransa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbirdə partiyanın 29 ildə keçdiyi şərəfli yola nəzər salındığını bildirib. Onun sözlərinə görə, YAP xalqın və dövlətimizin taleyində mühüm rol oynayıb və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərib. "Bu gün partiyamızın gücü Heydər Əliyev ideyalarından, eyni zamanda, Ulu Öndər siyasətinin ən layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu siyasətindən qaynaqlanır. Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan partiyamızın Sədri, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm gələcəyə doğru daha inamla irəliləyəcək", - deyə o əlavə edib.

YAP-da nəsillərarası varislik prinsipinə önəm verildiyini deyən Tahir Budaqov mürəkkəb bir dövrdə partiyanın yaranmasında iştirak edən, təzyiqlərə rəğmən cəsarət nümayiş etdirərək Heydər Əliyev naminə mübarizə aparan 91-lərə hər zaman hörmət və ehtiram göstərildiyini söyləyib. O qeyd edib ki, 91 ziyalının başladığı yol bu gün uğurla davam etdirilir, Prezident İlham Əliyev böyük inam və qətiyyətlə Azərbaycanı daha böyük zəfərlərə doğru aparır.

Tədbir iştirakçıları "91"-ləri alqışlayıblar.

Sonda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təltif olunmuş YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadəyə "Şərəf" ordenini və Veteranlar Şurasının üzvü Misir Mərdanova 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenini təqdim edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Arif Rəhimzadə və Misir Mərdanov çıxış edərək göstərdiyi etimada görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

# 20 noyabr - Qələbə Günün mübarək, AĞDAM








TƏHLİL

### Prezident İlham Əliyev: "Biz Ağdamı bir güllə atmadan azad etdik və bundan sonra burada əbədi olacağıq"

2020-ci il, 20 noyabr - AĞDAM şəhəri Azərbaycana QAYIDAN tarixi gün. Bəli, bu gün murdar erməni işğalçılar Qarabağın aranı ilə dağlıq hissəsinin əsas qapısı olan, tək Qarabağın yox, Azərbaycanın AĞDAM şəhəri Azərbaycana Qayıtdı. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları birgə bəyanatla Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi sahədəki möhtəşəm uğurlarımızı məharətlə siyasi-diplomatik müstəviyə keçirməyə nail oldu. Və bu tarixi sənəd Azərbaycanın Qələbəsinin təsdiqi olmaqla yanaşı, işğal altında olan digər torpaqlarımızın müharibəsiz, qansız, şəhidsiz geri qaytarılmasını təmin edir. Ali Baş Komandanımız noyabrın 20-də xalqa müraciətində demişdir: "Bu bəyanat tarixi əhəmiyyət kəsb edir. Bu bəyanat Ermənistanın kapitulyasiyası deməkdir. Bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat bizim Şanlı Qələbəmizdir!..Əldə etdiyimiz qələbələr məcbur etdi ki, Ermənistan tərəfi Ağdam, Laçın və Kəlbəcəri siyasi yolla qaytarsın".

### "Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz"

Azərbaycan Prezidenti noyabrın 20-də xalqa müraciət edərək bütün ağdamlıları təbrik edib. Bildirib ki, artıq siz qaçqın deyilsiniz: "Mən sizi Ağdam rayonunun işğaldan azad olunması münasibətilə ürəkdən təbrik edirəm. Bütün ağdamlıları ürəkdən təbrik edirəm. Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız. Ağdam rayonunun işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Mən dəfələrlə demişdim ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli həm siyasi, həm hərbi yollarla mümkündür. Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi". Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olarkən 27 ildən sonra işğaldan azad olunan Ağdamda dövlət bayrağımızı qaldırıb. Bu görüntüləri hər bir azərbaycanlı fəxrlə və böyük sevinclə izləyir.

"Bu gün mən buradayam, Ağdam şəhərindəyəm. Ağdam məscidini ziyarət etmişəm, Azərbaycan Dövlət Bayrağını qaldırmışam. Biz Ağdama qayıtmışıq",-deyən dövlət başçımız İlham Əliyev bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik edərək ağdamlıların bu günü uzun illər ərzində səbirsizliklə gözlədiklərini bildirdi: "Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik. Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin". Ali Baş Komandan İlham Əliyev işğaldan azad olunan torpaqlarımızın Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qaytarıldığını bildirib: "Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq".

### "Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm"

"Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım",-deyən dövlət başçımız bildirib ki, bu gün mən buradayam, Ağdam şəhərindəyəm. Ağdam məscidini ziyarət etmişəm, Azərbaycan Dövlət Bayrağını qaldırmışam: "Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq".

### Böyük Qayıdışa doğru: Ağdam dünyada örnək şəhər olacaq

Prezident İlham Əliyevin işğaldan azad edilmiş Ağdam rayonuna səfərinin məhz 28 may tarixində reallaşması təsadüfi deyildi. Çünki həmin gün Azərbaycan xalqı Respublika Gününü qeyd edirdi. Prezident Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı səfərin 28 may gününə salınmasının təsadüfi olmadığını söylədi: "Bu gün Respublika Gününü biz Ağdamda, Ağdam şəhərində qeyd edirik. Bunun çox böyük rəmzi mənası var. Ağdam şəhərinin Baş Planı bu gün təsdiq ediləcək. Bu Baş Plan mənə təqdim edilmişdir. Biz bir müddət bu plan üzərində işləyirdik və istərdim ki, Ağdam rayonunun tanınmış şəxsləri Baş Planla tanış olsunlar, öz fikirlərini bildirsinlər və sizin iştirakınızla biz bu gün bu gözəl mərasimi keçirək".

### Prezident bütün dünyaya bəyan etdi: "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır".

Bəli, Baş Plandan bəlli olur ki, ən qısa zamanda Ağdam Qarabağın ən böyük şəhərinə, iqtisadi və sənaye mərkəzinə çevriləcək. 100 minlik əhaliyə hesablanmış şəhərdə sənaye parkları, hotellər, yaşayış binaları, ən müasir nəqliyyat infrastrukturu, 30 minlik stadion, Qarabağ Universiteti, teatr binası və digər bu kimi mühüm mədəni və biznes obyektləri tikiləcək. Ruhlar məkanı və ya "Qafqazın Hirosiması" adlanan bu yurd yerimiz cənnət bir məkana çevriləcək. Və bütün bunlar ən qısa zamanda ediləcək. Əslində, 10 noyabr sazişindən sonra dərhal işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işlərinə və infrastruktur layihələrinin icrasına başlanılıb. Azad olunmuş ərazilərin bərpası xüsusi plan əsasında "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl zona" prinsipi əsasında yenidən qurulur. Bu istiqamətdə artıq işlərə başlanılıb və Böyük qayıdışı təmin etmək üçün proseslər sürətlə gedir. Cənab İlham Əliyev Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak edərək bütün dünyaya bundan sonra bu müqəddəs şəhərin əmin əllərdə olacağını göstərmiş oldu.

Qeyd edək ki, binanın fasadında Ağdamın yerli ağ daşından və Avropa memarlıq elementlərindən istifadə ediləcək.

Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulub. Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi yaradılacaqsa, Ağdamda sənaye mərkəzi təşkil olunacaq. Ağdamda yaradılacaq sənaye mərkəzində ilkin müraciətlər əsasında 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcək. Buraya 110 milyon manata yaxın sərmayə qoyulacaq, 330 iş yeri açılacaq. Ağdamın strateji coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.

Bəli, bu gün Müzəffər Azərbaycan Ordusu Zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Ağdamımız, onun ardınca Kəlbəcərimiz, Laçınımız...bütün Qarabağımız, qürurumuzu, özünəgüvənimizi, inamımızı qaytaran, ümidsizliyi, sınıqlığı qovmuş, birliyimizi, yekdilliyimizi bərqərar etmiş Prezident, Ali Baş Komandanımız İlham Əliyevdən Azərbaycana əbədi yadigar qalacaq - Zəfər bayramımız! 20 noyabr 2020-ci il QƏLƏBƏ TARİXİN MÜBARƏK, AĞDAMIM! Qələbə bayramın mübarək, Qarabağ Azərbaycandır!

***RƏFİQƏ KAMALQIZI***

***Beynəlxalq ictimaiyyət Azərbaycan Prezidenti İlham Əliyevin COVİD-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizəsini və təşəbbüslərini dəstəkləyir. Belə ki, 2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində video müraciət vasitəsilə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınayıb və Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini elan etmişdi.***





# “Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarıdır”






Noyabrın 18-də BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Assambleyanın Üçüncü Komitəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş ”COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi” adlı qətnamə BMT üzv dövlətləri tərəfindən qəbul edilib. 171 ölkə qətnamənin lehinə səs verib. Heç bir ölkə qətnamənin əleyhinə səs verməyib. Qətnaməyə münasibətdə bitərəf qalmış 7 ölkədən birinin regionda ən az peyvəndləmə səviyyəsinə malik Ermənistandır. Qeyd etmək lazımdır ki, bu, Ermənistanın bütün məsələlərə, hətta humanitar məsələlərdə də Azərbaycanın nailiyyətlərini qısqanclıqla qarşılamasının nümunəsidir.

## ”COVID-19 PANDEMİYASI BÜTÜN DÜNYA ÜÇÜN CİDDİ ÇƏTİNLİKLƏR DOĞURMAQDA DAVAM EDİR”

Əlbəttə ki, dünya ölkələrinin əksəriyyəti özünə qapandığı dövrdə Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdəndir. Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri zamanı videoformatda çıxışı zamanı bildirdiyi kimi, ”COVID-19 pandemiyası bütün dünya üçün ciddi çətinliklər doğurmaqda davam edir. Hökumətimiz ilk günlərdən əhalinin qorunması və pandemiyanın mənfi təsirinin minimuma endirilməsi məqsədilə mühüm və praktiki tədbirlər həyata keçirir”. ”Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarıdır” - deyən Cənab Prezident Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın bir sıra qlobal təşəbbüslər irəli sürdüyünü diqqətə çatdırıb: ”2020-ci ilin may ayında Azərbaycan Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin COVID-19 ilə mübarizəyə həsr edilmiş Zirvə toplantısını təşkil etmişdir. Zirvə toplantısı zamanı Mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsini təklif etdim. Həmin təşəbbüs BMT-yə üzv olan 150-dən artıq dövlət tərəfindən dəstəkləndi və 2020-ci il 3-4 dekabr tarixlərində xüsusi sessiya baş tutdu”. Dövlət başçısı inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırmışdı.

## “PEYVƏNDLƏRİN YALNIZ 0.3 FAİZİ AZGƏLİRLİ ÖLKƏLƏRİN PAYINA DÜŞMÜŞDÜR”

Peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bildiyimiz kimi, Azərbaycan peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək BMT-nin İnsan Hüquqları Şurasında ”Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi” adlı qətnamə layihəsi irəli sürmüşdü. ”Azərbaycan dəfələrlə açıq şəkildə peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınması ilə bağlı öz narazılığını ifadə edib”, - deyə Prezident bildirib.

Cənab Prezidentin sözlərinə görə, davam edən ”peyvənd millətçiliyi”, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur: ”Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0.3 faizi azgəlirli ölkələrin payına düşmüşdür. Bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürmüş və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul olunmuşdur”.

Azərbaycanın koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları edib, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi ayırıb, dörd ölkəyə isə təmənnasız olaraq 150 min doza vaksin təqdim edib.

BMT Baş Assambleyanın 3-cü komitəsində qəbul olunan qətnamə beynəlxalq ictimaiyyətin Azərbaycan Prezidenti Cənab İlham Əliyevin COVİD-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizəsini və təşəbbüslərini dəstəklədiyini göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

şərh

# “Yeni Azərbaycan Partiyasının təsis olunması ölkə tarixinin mühüm səhifələrindən biridir”

## YAP Qusar rayon təşkilatı YAP-ın yaranmasının 29-cu ildönümü münasibətilə tədbir keçirib



***Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümü münasibətilə YAP Qusar rayon təşkilatının rəhbərliyi və fəalları ilk olaraq, partiyanın yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini yad ediblər. Sonra tədbir iştirakçıları rayonun Şəhidlər Xiyabanını ziyarət edərək, torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş vətən oğullarının xatirəsini yad ediblər.***

Tədbir YAP Qusar rayon təşkilatının qərargahının iclas zalında davam etdirilib. Tədbiri giriş sözü ilə açan YAP Qusar rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən David İbramxəlilov qeyd edib ki, biz partiyamızın 29 - cu ildönümünü yeni tarixi şəraitdə, qalib ölkənin vətəndaşları kimi qarşılayırıq. Həmçinin natiq, Yeni Azərbaycan Partiyasının yarandığı dövrdə ölkədəki vəziyyət, ”91-lər”-in Ümummilli Liderə tarixi müraciəti, Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası və partiyanın inkişafının müasir dövrü haqqında söz açıb.

Tədbirdə çıxış edən partiya veteranı, YAP Qusar rayon təşkilatının yaradıcılardan olan rayonun ağsaqqal ziyalısı Əliyulla Ağalarov, Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüş, Azərbaycan Silahlı Qüvvələrin mayoru Renat Şixnəbiyev və YAP üzvü, Vətən müharibəsinin qazisi Ruslan Kübərov partiyanın keçdiyi şərəfli tarixi yoldan və Partiyasının Sədri, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış tarixi Zəfərdən söz açıblar.



Sonra tədbirə dəvət olunmuş YAP üzvü olan şəhid valideynləri və Vətən müharibəsinin qaziləri Fəxri Fərmanlarla təltif edilmiş və onlara hədiyyələr təqdim olunub.

Tədbirin sonunda partiyaya yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub. Həmin gün Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümü münasibətilə ağacəkmə aksiyası da təşkil olunub. YAP Qusar rayon təşkilatının fəallarının iştirakı ilə yeni salınacaq ”Zəfər parkı”nda müxtəlif dekorativ ağaclar əkilib.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# Samuxda Yeni Azərbaycan Pariyasının yaradılmasının 29-cu ildönümü qeyd olunub



**19 noyabr 2021- ci il tarixində Yeni Azərbaycan Partiyasının yaradılmasının 29-cu ildönümü münasibəti ilə YAP Samux Rayon Təşkilatında ”Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır” mövzusunda konfrans keçirildi. Konfransda YAP rayon təşkilatının ərazi ilk partiya təşkilatlarının sədrləri və partiya fəalları iştirak edirdilər. Tədbir iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etdilər, heykəlin önünə gül-çiçək dəstələri düzdülər.**

Konfransı giriş sözü ilə açan Samux rayon İcra Hakimiyyətinin Başçısı Alı Qocayev Yeni Azərbaycan Partiyasının 29 ildə keçdiyi şərəfli yoldan ətraflı bəhs etdi. O qeyd etdi ki, Yeni Azərbaycan Partiyasının təsis olunması ölkə tarixinin mühüm səhifələrindən biridir. Sonra natiq Yeni Azərbaycan Partiyasının yaranmasında Ulu Öndər Heydər Əliyevin rolundan ətraflı danışdı. Sonra YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov YAP-ın yarandığı tarixi şəraitdən, keçdiyi şərəfli yoldan, onun yaradıcısı, Ulu öndərimiz Heydər Əliyevin xilaskarlıq missiyasından, partiyanın cəmiyyətdəki rolundan, rayon təşkilatının fəaliyyətindən ətraflı bəhs edərək, qeyd etdi ki, Yeni Azərbaycan Partiyasının əldə etdiyi uğurlar və qazandığı nailiyyətlər bu partiyanın tərkib hissəsindən biri olan Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatında da öz əksini tapmışdır.

Belə ki, hər şeydən əvvəl Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatında say tərkibinin artımı yönündə müsbət irəliləyişlər əldə edilmişdir. 1993-cü ildə rayon təşkilatı cəmi 3 ilk ərazi partiya təşkilatı, 30 nəfər partiya üzvünü birləşdirdisə, indi hal-hazırda 104 ilk partiya təşkilatı öz ətrafında 5338 partiya üzvünü birləşdirir.

Daha sonra tədbirdə çıxış edən Samux rayon İcra Hakimiyyəti Başçısının müavini Kəmalə Xəlilova, partiya fəallarından Vidadi İsayev, Rüstəm Ramizli və Gülvin Babayeva çıxış edərək qurucusu ümummilli liderimiz Heydər Əliyev olan YAP-ın çox çətin sınaqlardan keçərək bu gün də ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi həyatında aparıcı qüvvə olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırdılar. Tədbirin sonunda bir qrup gəncə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi təqdim edildi və partiyanın 29-cu ildönümü münasibətilə keçirilən şahmat turnirinin qalibləri diplom və hədiyyələrlə mükafatlandırıldılar.

***İLHAM***

# Sabunçuda YAP-ın təsis olunmasının 29-cu ildönümü ilə bağlı tədbir keçirilib



***Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatında partiyanın təsis olunmasının 29-cu ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Sabunçu rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, Milli Məclisin üzvü Əliabbas Salahzadə və ərazi ilk partiya təşkilat sədrləri iştirak edirdilər. Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev parkında Ümummilli Liderin abidəsi önünə əklil və qızılgül dəstələri düzüblər.***



Sonra tədbir Bakı Gənclər Mərkəzinin akt zalında Dövlət Himninin səsləndirilməsi, YAP-ın qurucusu, Ulu Öndər Heydər Əliyevin və Vətən müharibəsində canlarından keçən Şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə davam edib.

Tədbiri giriş sözü ilə açan YAP Sabunçu rayon təşkilatının Sədri Misirxan Vəliyev cıxış edərək bildirdi ki , Yeni Azərbaycan Partiyası yarandığı gündən xalqımıza Azərbaycan tarixinin ən möhtəşəm səhifəsini, unudulmaz anlarını yaşadıb. Xalqın təkidi tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev ölkəmizdə vətəndaş müharibəsinin qarşısını aldı, dövlətimizi bəlalardan xilas etdi. Azərbaycanın üçrəngli bayrağını bütün dünyaya tanıtdı. Bu gün Heydər Əliyev irsinin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev Azərbaycanımızı daha da inkişaf etdirdi. Qətiyyətli, uzaqgörən siyasəti nəticəsində rəşadətli Ordumuzun qüvvəsi sayəsində 44 günlük müharibədə düşmən tapdağı altında olan ərazilərimiz azad edildi. Yeni Azərbaycan Partiyası Qələbələr Partiyasıdır.

Daha sonra çıxış edənlər Sabunçu rayon İcra Hakimiyyətinin birinci müavini Güloğlan Məmmədov, ərazi ilk partiya təşkilat sədrləri Ramidə İbrahimova, Cavad Mustafayev, Gülnaz Abdullayeva və fəal gənc Sərxan Şahverdiyev çıxış edərək bildirdilər ki, hakim partiyanın yaranması yüksək səviyyədə təşkilatlanması milli tariximizdə görkəmli yer tutan Ulu Öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. Yeni Azərbaycan Partiyası dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaq məqsədilə yaradılan partiyadır. Bu gün də bu ənənələr layiqincə davam etdirilir. Çıxış edənlər Partiyamızın Sədri, ölkə Prezidenti , Ali Baş Komandan İlham Əliyevlə qürur duyduqlarını və hər kəsi bundan sonra da Onun ətrafında daha sıx birləşməyə çağırdılar. Sonda bİr neçə partiya fəalları Fəxri Fərmanlarla təltif olundu.

***Rəfiqə***

***Son günlərdə bəzi KİV-lərdə və sosial mediada həm də xüsusi olaraq şişirdilmiş bir rəqəmlə guya "200 min şəxsin əlilliyinin ləğv edildiyi, pensiyasının kəsildiyi" kimi tamamilə əsassız olan, yanlış ictimai rəy, süni ajiotaj yaratmağa yönələn fikirlər yer alır. Həssas qrupların adından manipulyasiya edərək onlarda aidiyyəti orqanlara qarşı inamsızlıq yaratmağa xidmət edən bu fikirlər tamamilə əsassızdır. Bu yazıda real vəziyyəti faktlarla təsvir edəcəyik.***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.***

# Əlillərin, qazilərin müavinətləri kəsilirmi?



## FAKTLAR

### Əlillərə dövlət qayğısı: hansı işlər görülüb, mövcud vəziyyət necədir?

Əvvəla, əlilliyə görə sosial ödənişin kəsilməsi halı baş verməyib və hazırda da belə hal mövcud deyil. Həmin sosial ödənişlər əlillik müddəti ərzində verilir və əlillik müddəti bitdikdə həmin sosial ödənişin təyinat müddəti də bitmiş olur. Ona görə də əlilliyi olan şəxs əgər onun əlilliyi müddətlidirsə, əlillik müddətinin nə zaman bitdiyini bilməli və göndərişin həmin vaxtdan e-sistemə daxil edilməsi üçün lazımi tbbi sənədlərini vaxtlında toplamalıdır.

Bəzən şəxs əlilliyinin təkrar qiymətləndirilməsi, yəni əlillik müddətinin uzadılması üçün müraciətin edilməsində, sənədlərin toplanmasında müəyyən gecikmələrə yol verir, göndəriş də əlilliyin bitdiyi vaxtdan sonra gec daxil olur. Belə hallar nəzərə alınaraq humanist yanaşma məqsədilə bu ilin iyul ayında əlilliyi olan şəxslərin hüquqları haqqında qanunvericilikdə dəyişiklik edilib və beləliklə, əlillik müddəti bitdikdən sonra 6 ay ərzində təkrar təyin olunan əlillik məhz əvvəlki əlillik təyinatı müddəti bitdiyi tarixdən rəsmiləşir. Yəni ortada ötürülmüş müddət üçün də şəxs əlilliyə görə sosial ödənişlərini ala bilir.

Ümumilikdə, həm 1-ci, həm 2-ci Qarabağ müharibəsi qazilərinin əlilliyinin qiymətləndirilməsinə xüsusi diqqət və qayğı var. 1-ci Qarabağ müharibəsi iştirakçılarından da təkrar qiymətləndirmə zamanı böyük qisminin əlillik müddəti uzadılıb. Hərbi səbəblərlə əlaqədar əlilliyin qiymətləndirilməsi üçün əyani müayinələr aidiyyəti orqanların və qeyri-hökumət təşkilatları nümayəndələrinin də iştirakı ilə və videoçəkilişləri də aparılmaqla keçirilir. Əlillik təyinatına haqqı çatan hər bir şəxsə əlillik dərəcəsi təyin edilir. Lakin qeyd etmək lazımdır ki, sağlam ola-ola uzun illər hər ay əlilliyə görə sosial ödəniş almış, dövlətin güzəşt və imtiyazlarından bəhrələnmiş, bu il təkrar qiymətləndirmə, həmçinin əyani müayinə zamanı diaqnozunun təsdiqini tapmaması, sağlamlıq vəziyyətinin əlillik təyinatına əsas yaratmaması səbəbindən əlillik təyin edilməyənlər də var. Həmin şəxslərin bundan narazılığı heç bir halda haqlı ola bilməz. Çünki əlillik statusunun buna haqqı çatmayan insanlara verilməsi qanunazidd olmaqla yanaşı, əlilliyi olan şəxslərin hüquqlarının da pozulmasına, onlara qarşı ədalətsiz yanaşmaya, haqqı çatmayanların əlillərin haqqına ortaq olmasına gətirib çıxarar.

Bəzi hallarda bu və ya digər şəxs uzun illər ərzində əlilliyə görə sosial ödəniş aldığını, bu il isə onun əlillik müddətinin uzadılmadığı üçün sosial ödəniş ala bilmədiyindən, bunun onun maddi rifahına mənfi təsir etməsindən gileylənir. Qeyd edək ki, uzun illər ərzində əlillik statusu daşıyan şəxsin sağlamlıq vəziyyətinin artıq əlillik təyinatına əsas vermədiyi (reabilitasiya olunduğu) müəyyən oluna və bu səbəbdən ona təkrar əlillik təyin edilməyə bilər. Yaxud əvvəlki dövrlərdə əsas olmadan əlillik təyin edilmiş şəxsə növbəti təkrar qiymətləndirmədə əlillik vəziyyətində olmadığı üçün əlilik təyin edilməyə bilər. Ona görə də uzun illər əlillik statusu daşımaq və əlilliyə görə sosial ödəniş almaq heç də təkrar qiymətləndirmə zamanı mütləq əlillik təyin edilməsini şərtləndirmir. Çünki əlilliyin qiymətləndirilməsi şəxsin hazırkı mövcud sağlamlıq vəziyyəti nəzərə alınaraq aparılır.

Hər xəstəlik, xəsarət, yaralanma əlilik vəziyyəti yaratmır. Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli 413 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə"də əlilliyin (I,II,III dərəcə əlilliklərin) və uşaqların sağlamlıq imkanları məhdudluğunun hansı xəstəlik və xəsarət hallarında təyin edildiyi aydın şəkildə göstərilib. Əliliyin qiymətləndirilməsi bu Əsasnamənin tələbləri əsasında aparılır. Anadangəlmə, xəstəlikdən, yaxud xəsarətdən yaranan əqli, fiziki qüsurlar nəticəsində həyat fəaliyyətinin məhdudlaşması müşahidə olunduqda əlillik təyinatına dair qərar çıxarılır.

Bəzən bu və ya digər şəxs səhiyyə müəssiəsi tərəfindən onun barəsində elektron sistemə göndəriş daxil edilməsi ilə ona mütləq əlillik təyin edilməli olduğunu düşünür, lakin göndəriş qiymətləndirmənin aparılması üçün sənəddir, əlillik təyin olunub-olunmaması barədə qərar isə tibbi-sosial ekspertiza xidmətinin apardığı qiymətləndirmə nəticəsində verilir.

Amputasiya olunmuş şəxslərin guya təkrar müayinə edildiyi barədə bəzən əsassız fikirlər səslənir. Amputasiya olunan, məsələn, əli, ayağı və ya hər hansı bədən əzası olmayan şəxslərə əlillik müddətsiz (ömürlük) təyin olunur və heç zaman da müayinəyə çağırılmırlar.

Əlilliyin qiymətləndirilməsi elektron infrastruktur ("Əlillik" altsistemi) üzərindən, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında, vətəndaş-məmur (ekspert) təması olmadan həyata keçirilir. Göndərişin kimə aid olduğu və hansı tibb müəssisəsindən göndərildiyi bilinmədən həkim ekspertlər tərəfindən qərarlar qəbul edilir.

2021-ci ilin ötən dövründə artıq 50 minə yaxın şəxsə əlillik təyinatı həyata keçirilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən təqribən 2 dəfə çoxdur. Əlillik qrupu təyin olunduqdan sonra əlilliyə görə sosial təminat növləri üzrə ödənişlərin (əmək pensiyası və ya aylıq sosial müavinət, təqaüd) təyinatı da elektron sistem üzərindən, proaktiv şəkildə həyata keçirilir.

Qələbə ilə başa çatan Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsinə xüsusi qayğı və həssaslıqla yanaşılır. Bunun üçün Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada təmsil olunan digər orqanların nümayəndələri ilə birgə qazilərin əlilliyinin qiymətləndirilməsi işləri operativ şəkildə yerinə yetirilir.

İlk növbədə Komissiya üzvləri tərəfindən hərbi qulluqçuların əyani müayinəsi və müvafiq sənədləşdirmə işləri aparılır. Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyaları tərəfindən şəhadətnamələr (xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə) təqdim olunur və tibb müəssisələri tərəfindən göndəriş (forma 88) elektron sistemə daxil edilir. Yekun mərhələ kimi əlilliyin qiymətləndirilməsi aparılır.

Ötən dövrdə Vətən müharibəsinin artıq 2200 qazisinə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı aparılıb və hazırda da bu işlər davam etdirilir. Əlillik təyinatından dərhal sonra onlara da proaktiv qaydada olmaqla e-sistem üzərindən onlara müvafiq sosial ödənişlər təyin edilib.

Əlilliyi olan şəxslərə, o cümlədən müharibə əlillərinə yönələn sosial ödənişlər (pensiya və müavinətlər, təqaüdlər) də mütamadi olaraq artırılır. Xüsusilə də son 3 ildə həmin ödənişlərdə orta hesabla 2 dəfə artım baş verib.

Eyni zamanda, dövlət başçısının 2020-ci il dekabrın 30-da imzaladığı fərmanlarla Prezidentin aylıq təqaüdü müharibə, 1990-cı ilin 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirməklə, Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslər üçün I dərəcə üzrə 250 manatdan 400, II dərəcə üzrə 230 manatdan 350, III dərəcə üzrə 210 manatdan 300 manata çatdırılıb. Milli Qəhrəmanlarımız üçün 1500 manatdan 1800, Böyük Vətən müharibəsi iştirakçıları üçün 150 manatdan 300 manata çatdırılıb. Eyni zamanda "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə 2000 manat məbləğində Prezidentin aylıq təqaüdü təsis olunub.

Müharibə, 1990-cı ilin 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirməklə, Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslər, habelə ümumi səbəblərdən I dərəcə əlilliyi olan şəxslər təqaüdlə yanaşı, əlilliyə görə aylıq müavinət və ya pensiya ilə də təmin edilirlər. Eləcə də bütün kateqorioyalardan olan I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlər üçün aylıq təqaüd ödənilir.

Şəhid ailələri ilə bərabər, müharibə əlillərinin də mənzil və fərdi evlə təminatı həyata keçirilir. İndiyədək bu kateqoriyadan olanlara 11 mindən çox mənzil/fərdi ev verilib və dövlət başçısının 25 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2021-2025-ci illərdə daha 11 min mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Onlardan 3 min mənzil və fərdi evin (2018-ci ilə nisbətən 5 dəfə çox) 2021-ci ildə verilməsi işləri aparılır ki, artıq 1850-si verilib. Şəhid ailələri və müharibə əlilləri ilə yanaşı, Vətən Müharibəsi Qəhrəmanlarına, gözdən əlilliyi olan şəxslərə, dövlət uşaq müəssisələri məzunlarına da mənzillər təqdim edilir. Həmin kateqoriyalara verilən mənzilləri də nəzərə alsaq bu il dövlət tərəfindən verilən mənzillərin sayı 2200-ə çatır.

Əlilliyi olan şəxslərin reabilitasiya xidmətləri və vasitələri ilə təminatı sahəsində də işlər davam edir. 2021-ci ilin 10 ayı ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 7615 nəfər əlilliyi olan şəxs 38670 protez-ortopedik və digər reabilitasiya vasitələri, o cümlədən 908 mühərrikli təkərli oturacaqla təmin edilib.

Reabilitasiya infrastrukturu müasir tələblərə uyğun qurulub və son iki ildə Nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra, müasir avanadlıqlarla təchiz edilmiş şəkildə istifadəyə verilib. Həmin reabilitasiya müəssisələrində bu ilin 10 ayında əlilliyi olan şəxslərdən, habelə müharibə əlillərindən ibarət 6450 nəfərə reabilitasiya xidmətləri, həmçinin Vətən müharibəsinin 1040 nəfər qazisinə sosial-psixoloji dəstək xidmətləri göstərilib.

Müharibə əlillərinin yüksək texnologiyalı, elektron protezlərlə təminatı işləri aparılır və Vətən müharibəsində yaralanmış, aşağı və yuxarı ətrafları amputasiya edilmiş 160 hərbçi 168 son nəsil protezlə təmin edilib.

Göründüyü kimi, əlillər, xüsusilə də müharibə əlilləri ilə bağlı bəzi şəxslər tərəfindən xüsusi məqsədlərlə qərəzli şəkildə yayılan məlumatların heç bir faktoloji əsası yoxdur.

***Altay***

# "YAP bu günə qədər çox şərəfli və uğurlu yol keçib"

## "Yeni Azərbaycan Partiyası Gənclərin gözü ilə"





Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatı və Şəmkir Gənclər Evinin birgə təşəbbüsü ilə Şəmkir Gənclər Evində partiyanın təsis olunmasının 29-cu ildönümü ilə əlaqədar"Yeni Azərbaycan Partiyası Gənclərin gözü ilə" adlı tədbir keçirilib. Tədbirdə YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, Şəmkir Gənclər Evinin direktoru İlkin Musyev YAP Şəmkir rayon təşkilatının məsul işçiləri, ərazi partiya təşkilat sədrləri və partiyafəalları iştirak edirdilər. Tədbir öncə YAP-ın qurucusu, Ulu Öndər Heydər Əliyevin və Vətən müharibəsində canlarından keçən şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edildi, sonra tədbiri Şəmkir Gənclər Evinin direktoru İlkin Musayev giriş sözü ilə açaraq 29 ildə şərəfli yol keçən YAP-ın möhtəşəm uğurlarından söz açıb. O, qeyd edib ki, YAP Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaradıldı: "1993-cü il oktyabr ayının 3-də YAP-ın sədri Heydər Əliyevin prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyuldu".

Çıxış edən YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev ulu öndər Heydər Əliyevin yaratdığı partiyanın ötən illər ərzində siyasi sabitliyin və davamlı inkişafın təminatçısı kimi çıxış etdiyini söyləyib. Bildirib ki, qısa müddət ərzində ümumxalq partiyasına çevrilən YAP bu günə qədər çox böyük, şərəfli və uğurlu yol keçib. Çıxışlarda əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən davam və inkişaf etdirilən düzgün siyasi kursun nəticəsi olaraq, bu gün xalqımızın nəhayət ki, böyük arzusunun gerçəkləşməsi, müqəddəs Qarabağ torpağının və işğal altında olan bütün ərazilərimizin öz əzəli sahibinə qaytarılması, bu torpaqlarda abadlıq və quruculuq işlərinin sürətlə aparılması da sevinc hissi ilə vurğulanıb. Sonda bir qrup partiya fəalı fəxri fərmanlarla təltif olunub.

**Rəfiqə**

## YAP-ın təsis edilməsinin 29-cu ildönümü ilə bağlı Qazax rayon təşkilatında konfrans keçirilib

19 noyabr 2021-ci il tarixdə Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümü ilə bağlı Qazax rayon təşkilatı tərəfindən videoformatda konfrans keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad olunub. Sonra YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov çıxış edib. Yeni Azərbaycan Partiyasının yaranmasından, tarixi xidmətlərindən ətraflı danışıb. Qeyd edib ki, xalq-iqtidar birliyinin nəticəsi olaraq ötən il Ordumuz mənfur ermənilər üzərində tari-





xi zəfərə imza atdı, işğal altında olan torpaqlarımız azadlığa qovuşdu. Ümummilli Lider Heydər Əliyevin ideyalarını uğurla həyata keçirən YAP sədri, ölkə prezidenti cənab İlham Əliyev müstəqil dövlətimizi məharətlə idarə edir. Qarşıya qoyulan bütün vəzifələr icra olunur. Görülən bütün işlərdə partiya üzvləri fəallıq nümayiş etdirirlər. Konfransda YAP Qazax rayon təşkilatı partiya fəalı Anar Nəbiyev, Qazax şəhər Q.Hacımahmudova adına orta məktəbi ərazi ilk partiya təşkilatının sədri Yeganə Göyüşlü, BDU Qazax filialı ərazi ilk partiya təşkilatının sədri Hamlet İlyasov çıxış ediblər. Partiyamızın 29 il ərzində keçdiyi şərəfli yoldan, qazandığı uğurlardan danışdılır.

Konfransı YAP Qazax rayon təşkilatının sədri səlahiyyətlərini icra edən Həmid Pənahov yekunlaşdıraraq Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümü münasibəti ilə təbriklərini çatdırdı.

**Rəfiqə**

## "Uğurlu inkişafın 29-ili: YAP 1992-2021"



YAP Yevlax rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu il dönümünə həsr olunmuş "Uğurlu inkişafın 29-ili: YAP 1992-2021" mövzusunda tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümumilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə qızılgül dəstələri düzmüşlər. Müstəqil Azərbaycanın və Yeni Azərbaycan Partiyasının qurucusu Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri giriş sözü ilə açan Milli Məclisin deputatı, YAP Yevlax rayon təşkilatının sədr səlahiyyətlərini icra edən İlham Məmmədov Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümü münasibətilə partiyanın təmsilçilərini təbrik etmişdir. Ulu Öndərin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının zamanın çətin sınağından keçib, tarixi zərurətdən yaranmasından geniş bəhs edən İlham Məmmədov partiya təmsilçilərinin Partiyanın sədri, Ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi müdrik siyasətin ətrafında sıx birləşdiyini, məhz bu siyasətin gələcəkdə də Azərbaycanı uğurlu inkişafa doğru aparacağını qeyd etdi. Tədbir çərçivəsində Yeni Azərbaycan Partiyasının 29-cu ildönümü ilə bağlı hazırlanmış videoçarx nümayiş etdirilmişdir.

Tədbirdə çıxış edən Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev Yeni Azərbaycan Partiyasının yarandığı gündən bu günə qədər keçdiyi şərəfli yoldan, xalqımızın azərbaycançılıq məfkurəsi ətrafında birləşməsini təmin edən Ulu Öndər Heydər Əliyevin ideyalarından söhbət açıb, Azərbaycanın 44 günlük Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli, güclü iradəsi və Ordumuzun rəşadəti nəticəsində işğala sona qoyan möhtəşəm Qələbəsindən danışdı.

Tədbirdə çıxış edən YAP fəalı Vahid Quliyev,Yevlax Mədəniyyət Mərkəzinin direktoru Eldəniz Mustafayev,Vətən müharibəsi qazisi Orxan Hüseynov Yeni Azərbaycan Partiyasının Cənubi Qafqazda ən nüfuzlu hakim partiya kimi güclü siyasi fəaliyyətindən danışaraq, onun gələcək hədəflərindən, Azərbaycanın parlaq Qələbəsindən və Ölkəmizin tərəqqisi naminə Prezident İlham Əliyevin həyata keçirdiyi geniş islahatlardan bəhs etdilər.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümü və partiyadakı ictimai- siyasi fəaliyyətlərinə görə bir sıra şəxslər YAP Yevlax rayon təşkilatının fəxri fərman və hədiyyəsi ilə mükafatlandırılıb.

***R.Kamalqızı***

## İsmayıllıda YAP-ın yaradılmasının 29-cu ildönümü qeyd olunub



Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatında partiyanın yaradılmasının 29-cu ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə İsmayıllı rayon icra hakimiyyətinin başçısı Nahid Bağırov, YAP İsmayıllı rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Sevil Əhmədova, ərazi ilk partiya təşkilatlarının sədrləri və partiya fəalları iştirak ediblər. Tədbirdən öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar. Daha sonra tədbirdə Yeni Azərbaycan Partiyasının yaradılmasından 29 illik fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Sevil Əhmədova çıxış edərək, partiyanın yarandığı mürəkkəb tarixi-siyasi şəraitdən, keçdiyi çətin və şərəfli mübarizə yolundan, Heydər Əliyevin xalqın və dövlətin qarşısında göstərdiyi böyük xidmətlərdən danışıb. O, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olmasının, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsinin dahi rəhbər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər artıq Azərbaycanı inkişaf yoluna çıxarıb. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Müstəqil dövlət ideyası Azərbaycanın yeni tarixində məhz Heydər Əliyevin adı, şəxsiyyəti ilə bağlıdır. İsmayıllı Peşə Tədrisi Mərkəzinin Direktoru Zaur Muradov, İsmayıllı Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının sədri Hafiz Kərimov, veteran partiya üzvü Yaşar Nuriyev, İvanovka kənd İƏD-si üzrə nümayəndəsinin müavini Olqa Radayeva, Topçu kənd tam orta məktəbinin direktoru Xavər Allahverdiyeva çıxış edərək, Ulu Öndər Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi, Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın mühüm uğurlar qazandığını diqqətə çatdırıblar. Tədbirin sonunda YAP sıralarına yeni üzv qəbul edilən bir qrup gəncə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

***ZÜMRÜD BAYRAMOVA***



# Qarakənd faciəsindən 30 il ötür

**_Azərbaycan xalqı ermənilər tərəfindən zaman-zaman soyqırıma, terrora məruz qalıb. Ermənilərin Azərbaycan torpaqlarında törətdiklər terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir. Tarixə diqqət etsək görərik ki, iki yüz ilə yaxın bir dövrdə təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı yeridilən soyqırımı, terrorun acı nəticələrini yaşamışıq. Azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq məqsədi ilə ideyalarının reallaşdırmağa can atıblar. Ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçiriblər. Yaxın tariximiz olan 44 günlük Vətən müharibəsi dövründə dinc insanlara, mülki əhaliyə qarşı etdikləri əməllər, işğaldan azad olan torpaqlarımızı tərk edərkən törətdikləri yanğınlar ermənin faşist ideologiyasının, terrorçuluğunun təzahürüdür._**

TƏHLİL

1991-ci il 20 noyabr tarixində Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində erməni hərbiləşdirilmiş dəstələri tərəfindən vurulan Azərbaycan hərbi helikopter hadisəsindən 30 il ötür. 1991-ci il noyabrın 7-də Bakıda Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya və Ermənistan həmsədrlərinin görüşü keçirildi. Görüşün səbəbi Qarabağ müharibəsi və hansı xalqın sıxışdırıldığını diqqətə çatdırmaq olmuşdur. Bu səbəbdən də, həmsədrlər razılaşırlar ki, hadisələri öz gözləri ilə görsünlər və Xankəndiyə getsinlər. 1991-ci il noyabrın 18-də Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya zəng vurur və Azərbaycan Respublikasının Dağlıq Qarabağ rəhbərliyindən xahiş edir ki, Təhlükəsizlik Şurasının növbəti iclasını Dağlıq Qarabağda keçirsin, çünki ərazidəki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakı nəzərdə tutulur. Telefon zəngindən sonra Bakıda siyahı tərtib olunur. Siyahıya Viktor Polyaniçko rəhbərlik etməli idi. Nümayəndələr, ancaq güc nazirliklərindən və Təhlükəsizlik Şurasının rəhbər orqanlarından ibarət olmalıydı. Rayon komendantı Nikolay Jinkinin müavini, polkovnik Vladimir Kuşnarikin 1991-ci il noyabrın 18-də tərtib etdiyi və Bakı ilə razılaşdırılmış siyahısına "Aşanak" kolxozunun heyvandarlıq birliyinin sədri Emil Balayan, Vladimir Kuşnarikin özü, beynəlxalq erməni diasporu (əsasən, Fransa və Kaliforniya erməni kilsələri) tərəfindən maliyyələşdirilən "Krunk" təşkilatının Dağlıq Qarabağdakı ideoloqlarından Oleq Yeseyan, "Yevkrapa" cəmiyyətinin maliyyə məsələlərinə baxan, onun Livan erməni diasporu ilə əlaqələndiricisi Leonard Petrosyan, zabit Tatavis Baqramyan və Azərbaycan Xalq Cəbhəsinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Xocalı, Əsgəran rayon şöbələrinin liderləri və onların Bakı nümayəndəsi daxil olsun. Məşvərət lentə alınmalı və respublika televiziyasının "Günün ekranı" xəbərlər proqramında göstərilməli idi. Saat 13:40 dəqiqədə Ağdam Hava Limanına verilən xəbərdən sonra bu adamlar vertolyota minmirlər.

Rəsmi Moskva iclasda dövlət katibi Tofiq İsmayılov və baş prokuror İsmət Qayıbovun hökmən iştirakını xahiş edir. Bu xahişi isə, məhz polkovnik Georgi Septa çatdırır. 1991-ci il noyabrın 19-u siyahı tərtib olunur və ilkin siyahı Tofiq İsmayılovun rəhbərliyilə müzakirə edilir. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıdan çıxarılır. Onların yerinə güc nazirliklərinin, qoşun birləşmələrinin rütbəli məmurları salınır. Siyahıya Viktor Polyaniçkonun başçılıq etməsi qüvvədə qalır. Ancaq 1991-ci il noyabrın 19-da gecədən xeyli keçmiş siyahı təzələnir. Viktor Polyaniçkonun, güc nazirliklərindən seçilmiş şəxslərin adları siyahıdan çıxarılır. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıya daxil olunur. Yeni siyahını Ayaz Mütəllibov 1991-ci il noyabrın 19-u, saat 23:00-da təsdiqləyir. Dağlıq Qarabağa gedəcək adamların siyahısı DQ rəhbərliyinə, Ağdam Hava Limanına, hərbi komendanta və Moskvaya göndərilir. Qrupun Dağlıq Qarabağ ərazisindəki fəaliyyətinə isə, üçlük nəzarət edir - Dağlıq Qarabağ təhlükəsizlik rəisi, polkovnik Georgi Septa, hərbi komendantın müavini, polkovnik Vladimir Kuşnarik və Xocavənd milis rəisi və polkovnik Oleq Osenov.

Gülablı və Yenikənd istiqamətlərində hərbi maşınlarda qurulmuş və Ağdam, Xocalı hava limanlarının uçuş və enmə zolaqlarını nəzarətə götürən radarlar vasitəsilə saat 14:05-də Ağdamdan Qarakənd istiqamətinə uçan Mİ-8 N72 vertolyotun rabitə əlaqələri kəsilir. Qırılmış rabitə ilə bağlı ilkin məlumatlar Xocavənd istiqamətində ötürülür. Lakin törədilən faciə haqqında ilkin məlumat təqribən altı saatdan sonra verilir. Ağdam, Xankəndi və Xocavənd hərbi birləşmələrinin komandanlığı susurdu. Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 dəqiqədə vurulur. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatır. Lakin bu faciə haqqında xəbər Xankəndidən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verilişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün Yerevan radiosu saat 16:15-də həmin xəbərin "qəza" kimi şərhini verir. Həmin məlumatı saat 16:40-da Tehran radiosu, 17:00-da Moskva radiosu açıqlayır.

Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, Dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev var idi. Ümumilikdə, qəza nəticəsində 22 nəfər həlak olub.

İlkin olaraq, Azərbaycanın nümayəndə heyətinin məlumatına görə, cəsədlərdən 12-si tam şəkildə tanınırdı, 3-cü qismən tanınırdı, qalanlarının şəxsiyyəti isə ekspertiza nəticəsində müəyyən edilib.

Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Arxayınlaşmaq qətiyyən olmaz!”

***“Ermənistanın əlinə düşən hər imkandan yararlanıb Rusiyanı şantaj etməsi, qərb ölkələrinə, beynəlxalq qurumlara müraciət edərək yardım istəyəcəyi barədə iddialar irəli sürməsi son günlər daha da artıb. Rusiya bu iddiaların nə qədər mənasız olduğunu anladığından Ermənistan rəhbərliyinin bəyanatlarına, hərbi yardım barədə müraciətlərinə gözlənilən münasibəti bildirmir, əksər hallarda susmağa üstünlük verir". Bunu SİA-ya açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.***



Onun sözlərinə görə, bu cür bəyanatlar son dövrlər dəfələrlə səslənib və qərbdən arzuladığını ala bilməyən ermənilər yenə Rusiyaya ”pənah aparmaq”məcburiyyətində qalıblar: ”Rusiyalı jurnalist, politoloq Maksim Şevçenko Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Rusiyanın və KTMT-nin məsələyə müdaxilə etməyəcəyi təqdirdə digər beynəlxalq tərəfdaşlara müraciət hüququnu özündə saxlaması barədə açıqlamasını Rusiyanı şantaj etmək cəhdi kimi qiymətləndirərək belə deyib. ”Ermənilərə açıq şəkildə göstərildi ki, Rusiyanı şantaja davam edərsə, onlar tezliklə Qarabağın statusu deyil, Zəngəzurun statusu ilə bağlı danışıqlara başlaya bilərlər”.

Yəqin xatırlayırsınız, bir il əvvəl, oktyabrın son günlərində Nikol Paşinyan Rusiya prezidentinə məktubla müraciət edərək, 1997-ci il müqaviləsinə görə ”yardım barədə təxirəsalınmaz danışıqlara” başlamağı xahiş etdi. Bu xahişə Vladimir Putin heç cavab verməyə də lüzum görmədi və Rusiya XİN-i onu aşağılayan rədd cavabı verdi. Həmin günlərdə qərb ölkələrindən də istənilən yardım gəlmədi və Ermənistan meydanda Azərbaycanla təkbətək qaldı. Nəticə hamıya məlumdur, Ermənistanın Rusiyaya yönəlik şantaj bəyanatları vəziyyəti dəyişə və Qarabağın yerinə Zəngəzurun statusunu gündəmə gətirə bilərmi? Son dövrlər bölgədə vəziyyət elə sürətlə dəyişir ki, bu məsələnin nə vaxtsa danışıqlar mövzusu olacağı istisna edilə bilməz. Bu barədə indi qəti fikir söyləmək mümkün deyil. Ancaq bir şeyi qəti demək olar ki, Zəngəzur dəhlizinin statusu mütləq gündəliyə gələcək və bu istiqamətdə Ermənistanın gözləmədiyi, onu qane etməyən qərarlar qəbul olunacaq”.

A.Səmədov onu da bildirdi ki, Laçından keçən humanitar dəhliz Rusiya sülhməramlılarının nəzarətindədir, nəqliyyatın və insanların hərəkətinin təhlükəsizliyini isə Azərbaycan təmin edir: ”4 ildən sonra sülhməramlılar regionu tərk edəcəklər və Laçın dəhlizinin statusunu yenidən müzakirə etmək zərurəti yaranacaq. ”Zəngəzur dəhlizindən keçən dəmir yolu xətti də həmin vaxtlarda hazır olacaq və hər iki dəhlizin statusu eyni vaxtda gündəliyə gələcək. Düşünürəm ki, Azərbaycan Zəngəzur və Laçın dəhlizlərinə eyni statusun verilməsini tələb etməli və buna nail olmalıdır. Yaxın vaxtlarda ilk növbədə sərhədlərin delimitasiyasını nəzərdə tutan üçtərəfli görüş yəqin ki, keçiriləcək və bu görüşün nəticəsində Ermənistan cəmiyyətində növbəti ”şok” yaradan hadisələr baş verəcək. Bu hadisələr içərisində Zəngəzurun Azərbaycana qaytarılması ola bilərmi? Güman etmirəm. Ancaq ”kommunistlərin səhvi” düzəlmədən də son dövrlər kifayət qədər ağır günlər yaşayan Ermənistanda sarsıntılarının davam edəcəyi şübhə doğurmur. Düşmənin son dərəcə ağır duruma düşdüyü və vəziyyətdən çıxmaq üçün çabaladığı bu günlərdə biz xüsusilə diqqətli və ehtiyatlı olmalıyıq. Arxayınlaşmaq qətiyyən olmaz!”

***Gülyana***



*Tahir Məmmədov*
*YAP Veteranlar Şurasının üzvü*

# Əli Əliyev, yoxsa dili Əyriyev?

Son vaxtlar böhtan, qarayaxma kampaniyasının önündə yorta- yorta gedən yabısını köndələn çapmaq istəyən ”Vətəndan və İnkişaf Partiyası”nın sədri Əli Əliyev öz hədyan çıxışlarını bir qədər də genişləndirib. Xalqımızın, yenilməz Ali Baş Komandan Qalib və Müzəffər Prezidentimiz İlham Əliyev və cəsur Azərbaycan Ordusunun dünayaya səs salan 44 günlük tarixi, möhtəşəm savaşını, böyük Zəfər,şanlı Qələbə ehtişamını özündən olsa kölgələmək istəyir. Guya biz Qarabağı Rusiyaya təhvil vermək ərəfəsindəyik. Doğrudan gülməlisən xanixarab, həm də yaxşı yuxular görürsən. Azərbaycanlı olasan, bu ölkədə yaşayıb, onun çörəyini yeyəsən, suyunu içəsən, amma bu boyda milli, tarixi Qələbəni görməyəsən. Ya da görə-görə özünün görməməzliyə vurasan.

Burada yeri gəlmişkən bir haşiyə çıxmaq istəyirəm. Deyirlər ev dibçəkləri sırasında bir tikanlı kakatus adlı bitki olur, həmişə də evin bir küncündə büzülüb oturur, guya ki, başı aşağı mürgüləyir amma qulağı söz, xəbər dənləyir,- qiymət böhtan torbasını doldurmaq üçün. Hərdən tikanlarını tərpədib o tərəfə bu tərəfə nəzər də salır. Sonra da bükülür, yığılır, balacalışır,- kirpi kimi. Hamı elə bilir ki, yatıb, heç nəyi eşitmir, heç kimi görmür. Amma evdə bir busat, şənlik olanda, gülüş sevinc sədaları yüksələndə, tikanları tərpənir, biz- biz durur. Elə bil yuxudan ayılır. Şənliyi, büsatı gözü götürməyən, xoş, sevinc sədalarından tikanları dikələn katusu görəndə... Əli Əliyevin haray-həşiri, tikanlarını qabartması yadıma düşür. Bu siyasi diletant Əli Əliyevin ləkəli reputasiyasını bir daha acı-acı xatırlamalı oluram. Bütün mənəvi-əxlaqi dəyərləri ayaqlayaraq şər-böhtanla kimlərəsə züy tutan, özü -özünü demokrat adlandıran Əli Əliyev sosial şəbəkləri qərəz dolu üfunətlə doldurub. Hətta iş o yerə çatıb ki, bu şər, üfunətə öz müavini Əliyar Şirməmmədov dözə bilməyib VİP-in Siyasi Şurasından və partiya üzvləyindən istefa verərək uzaqlaşıb. Keçmiş müavin Ə.Şirməmmədov açıqca bəyan edib ki, Əli Əliyevin qərəzli, böhtan dolu ittihamlarına daha dözə bilmir. Hətta onu da qeyd etməyi unutmayıb ki, bu Əli Əliyev VİP təşkilatını əsl diktator kimi idarə edir. Açıqca ərz eləyib ki, ” ümumiyyətlə, belə deyərdim ki,- bir az kobud çıxacaq,- partiya diktatorcasına idarə edilmək ucbatından dağılmaq üzrədir. Mən Əli bəydən yaşca da böyüyüem. Düz, 30 il 4 ay idi ki, bir yerdə idik. Deyərdim ki, ayrılmağımızın səbəbi siyasi baxışlarımızın üst-üstə düşməməsi ilə bağlıdır. Hesab edirəm ki, özümə hörmət edərək mədəni halda istefa verməyə məcbur oldum”.

30 illik dostunun,-partiyadaşının bu sözlərindən sonra VİP sədri Əli Əliyevə əqidəsi sürüşkən, dili Əyriyev deməyəsən, bəs nə deyəsən. Partiya sədrinin keçmiş müavininin dediyi kimi, Əli Əlieyvin siyasi baxışlarında mülahizələrində , çağırışlarında, dövlətə, iqtidara, bütövlükdə xalqımıza tuşlanan haqsız söz, iftira hücümlarında onun yanaşmalarının siyasi həyasızlığını açıq-aşkar görünür. Bəli, böyük yazıçımız Mirzə Cəlil demişkən ” dünya başına deyil, hamı hamını görür”. Sosial şəbəkələrədə özünü xalq, millət təəssübkeşi kimi qələmə verməklə deyil, ay Əl bəy, sizi artıq tanıyırlar. Bir zmanlar AMİP-dən qovuldunuz, gördülər ki, siyasi ambisiyasınız, ”mənəm-mənəmçiliyiniz” heç bir çərçivəyə sığmır. Sizə, xarakterinizə rişxəndlə, ikrahla baxırlar. Bunu biz demirik, o vaxt təmsil olunduunuz AMİP funksioneri Əli Orucov özü deyir ki, hələ 2005-ci ildə siz bu partiyanın sədri olanda təşkilatı öz şəxsi məqsədləriniz üçün istifadə edirdiniz. Həm də pozuculuq, ara qarışdırmaq fəaliyyətinizlə hamının gözündən düşmüşdünüz. Ona görə də 2006-cı ilin yanvar ayının 8-də AMİP-in Mərkəzi Şurasının yekdil və prinsipial qərarı ilə sədrlikdən, hətta üzvlükdən belə uzaqlaşıdırıldınız. Hələ onu da demirik ki, Azərbaycan Dövlət Tibb Universitetinin kafedrasının əməkdaşları da sizi yaramaz əməllərinizə görə öz sıralarından çıxdaş etdilər. Bayaq qeyd etdiyimiz kimi, dünya başına deyil. Hələ onu da demirəm ki, axırıncı deputat seçkilərində namizədliyinizi ciddi- cəhdlə irəli sürsəniz də heç bir faiz də səs toplaya bilmədiniz. Çünki o zaman yuxunuzda tez-tez Milli Məclisdəki kresloları görürdünüz,- düz deyirlər ki, ac toyuq yuxusunda həmişə darı görər. Uğursuz ”dovşan”, ”pişik” həkimi kimi hər yerdən qovula-qovula heç yerdə öz yerini tuta bilməyən savadsız həkim olaraq hətta öz ”xəstələrinizin” belə dadına çata bilmirsiniz.

İndi də hər cür qara piar kamapniyasını qızışdırmaq istəyən siyasi həpənd Əli Əliyev həmin xülayalarının yedəyində sürünür.

Əli Əliyev unudur ki, qədirbilən, müdrik xalqımız öz dostunu, düşmənini yaxşı tanıyır, ağı qaradan seçməyi gözəl bacarır. Kifayət qədər qaranlıq keşmişi olan, AMİP-dən qovulan, fitnəkarlıqla Xalq rəssamı Kamil Əliyevin əmlakını ələ keçirmək istəyən tamahkar VİP sədri unudur ki, müxalifətçilik belə olmur. Mənəvi-psixoloji burulğanlar girdabında çırpınan bu ”həkim-siyasətçi” nədənsə hər şeydən əvvəl öz vətəndaşlıq borcunu, Vətən torpaq, Qarabağ təəssübünü bilərəkdən ”yaddan çıxarır” Əli Əliyev kimi marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan ofislərinin mərmər döşəmələri üstündə gəzib yardım dilənməklə heç nəyə nail ola bilməyəcəklər. Bələləri bilmədidirlər ki, Vətənin halal, müqəddəs çörəyinə kəm baxanları tarix heç zaman bağışlamır...

# “Ermənistan hakimiyyətinin devrilməsi 2-3 həftəlik işdir”

***“Sözsüz ki, son vaxtlar Ermənistan dövlətinin daxilində revanşist qüvvələrin hakimiyyətə göstərdiyi təzyiqlər fonunda Azərbaycan-Ermənistan sərhədində belə bir təxribatların baş verəcəyi gözlənilən hal idi". Bu sözləri SİA-ya açıqlamasında politoloq Sahil İskəndərov bildirib.***



Onun sözlərinə görə, bu cür təxribatların baş verməsi heç də təəccüblü deyil: ”Azərbaycan ordusunun həmin təxribatların qarşısını çox məharətlə alması və az itkilər hesabına düşmənə çox ağır zərbələr və itkilər verməklə bu müharibəni udması ondan xəbər verir ki, Azərbaycan tərəf hər zaman buna hazır olub. Amma Ermənistanda niyə bu hallar baş verir?



Bir məqamı da nəzərdən qaçırmayaq ki, son vaxtlar məhz üçtərəfli komissiyanın da işi haqqında məlumatlar ortaya qoyulduqca yəni sərhədlərin delimitasiyası və demarkasiyası və xüsusi ilə də bu baxımdan Zəngəzur dəhlizinin açılması məsələsində biz görürük ki, artıq Ermənistanda revanşist qüvvələr daha çox xal toplamağa çalışırlar və buna müəyyən mənada da nail olurlar. Hökumətə isə çox ciddi təyziqlər göstərilirdi. Axır vaxtlarda baş vermiş son parlament iclasında dinləmələr zamanı qapalı müzakirə keçirildi. Bu iclasdan sonra indi Ermənistanda ana müxalifət hesab edilən ”Hayastan” partiyasının lideri, sabiq prezident Robert Koçaryan birmənalı şəkildə bəyan etdi ki, bu hakimiyyətin devrilməsi istər barikadalar yolu ilə, istərsə də sülh yolu ilə uzağı 2-3 həftənin işidir. Yəni konkret olaraq bu onu göstərir ki, revanşist qüvvələrin Ermənistan hakimiyyətinin devrilməsi məsələsində ciddi fikirləri var və burada bir məqam da var ki, həm revanşist qüvvələrə, həm də kənardan Ermənistan hakimiyyətinin özünə çox ciddi təsirlər göstərir”.

***Abutel İlhamqızı***

# Stanislav Tarasov: "Ermənilərin özləri döyüşmək istəmirlər, lakin KTMT-ni köməyə çağırırlar"



***"K**adr sıçrayışı ciddi siyasi böhranın əlamətidir. Ermənistanda müdafiə və xarici işlər nazirlərinin tez-tez dəyişməsi siyasi etimad böhranından xəbər verir".SIA xəbər verir ki, bunu "Caliber" analitik mərkəzinə açıqlamasında rusiyalı politoloq Stanislav Tarasov Ermənistanın müdafiə naziri Arşak Karapetyanın vəzifəsindən azad edilməsi və onun yerinə Paşinyana yaxın olan Suren Papikyanın təyin olunmasını şərh edərkən deyib.*






Xatırladaq ki, Ermənistanda cəmi bir il ərzində dörd müdafiə naziri dəyişdirilib.

"Arşak Karapetyanın niyə tutduğu vəzifədən uzaqlaşdırıldığı mənə tam aydın deyil. Tamamilə mümkündür ki, o, ya İrəvanla Bakı arasında kəskinləşməyə səbəb olub, ya da Paşinyanın hansısa göstərişini yerinə yetirməyib. Hətta Ermənistan cəmiyyətində belə bir fikir formalaşıb ki, Karapetyan Qarabağa son səfərindən Bakının narazı qaldığı üçün və ya Azərbaycan tərəfinin onun Ermənistan rəhbərliyində hərbi qrupa rəhbərlik etməsindən şübhələndiyi üçün işdən çıxarılıb. Bu məntiqlə belə çıxır ki, sabah Ceyhun Bayramov Ermənistanın xarici işlər nazirinə aid narazılığını bildirsə, Mirzoyanın başı uçacaq"- Tarasov deyib.

Politoloqun fikrincə, həm Əliyev, həm də Paşinyan müxtəlif səbəb və motivlərlə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasında və 2020-ci ilin noyabrında üçtərəfli bəyanatın bəndlərinin həyata keçirilməsində maraqlıdırlar: "Dünya praktikasında adətdir ki, əvvəlcə sülhlə bağlı baza sazişi bağlansın və yalnız bundan sonra sakit şəraitdə sərhədlər çəkilə və müəyyən oluna bilər. Bəs ermənilər Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını və buna uyğun olaraq Qarabağın Azərbaycan ərazisi olduğunu hələ açıq şəkildə bəyan etməsələr, sərhədin demarkasiyasına necə razılaşa bilərlər?", - deyə S.Tarasov bildirib.

Siyasi analitikin sözlərinə görə, 2020-ci il noyabrın 10-da bağlanan müqavilələr silsiləsi bulanıqlaşmağa başlayıb: "Dəhliz boyu danışıqlar dalana dirəndi və bir günlük müharibə atəşkəs rejiminin pozulmasına gətirib çıxardı. Və müvafiq olaraq, Azərbaycan və Ermənistan arasında potensial yeni silahlı münaqişə istisna edilmir.

Eyni zamanda, S.Tarasov Ermənistan tərəfində birgünlük müharibəyə Rusiyanın və KTMT-nin müdaxilə etməməsindən erməni tərəfinin narazılığını və erməni siyasi elitasının "yeni müttəfiqlər tapmaq" vədlərini şərh edərkən, qeyd edib ki, Moskva Bakı ilə İrəvan arasında sərhəd münaqişəsini Ermənistan ərazisinə təcavüz və ya müttəfiqə qarşı təcavüz aktı hesab etmir.

"Digər tərəfdən, ermənilərin özləri döyüşmək istəmir, KTMT-dən kömək istəyirlər. Onda onlara kömək üçün qırğızlar, yoxsa qazaxlar getməlidir? Qırğızlar onlar üçün döyüşməlidirmi? Ancaq ermənilər Qərbdə kiminsə onlar üçün döyüşməyə hazır olduğuna inanırlarsa, zəhmət olmasa dəvət etsinlər. Kimsə onları narahat edir? Başqa xarici tərəfdaşlara sahib olmaq istəyirsiniz? Buyurun! Rusiya sizə qarışmayacaq", - deyə S. Tarasov yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# Əli Əliyevin Azərbaycanın uğurlarına qarayaxma kampaniyası...



## Ucuz reklamla dividend qazanmağa çalışan belə "siyasətçilər"in yeri tarixin arxividir

Son vaxtlar sosial şəbəkələrdən siyasi kapital toplamaq və ucuz reklamla dividend qazanmağa çalışan VİP sədri Əli Əliyev kimi "siyasətçilər" üçün milli maraqları arxa plana keçirməkdən belə utanıb qızarmırlar. Bu ünsürlər 30 il bundan əvvəlki dövrün nostalgiyası ilə yaşayaraq düşünürlər ki, belə ucuz yollarla xalqın dəstəyini qazanacaq, illərdir arzusunda olduqları hakimiyyəti ələ keçirə biləcəklər. Ən qəribəsi və təəccüblüsü budur ki, belələri qaranlıq keçmişlərini unudaraq xəyallar aləminə səyahət edirlər. O cümlədən Əli Əliyev kimilər ucuz reklama üstünlük verib, "mən də varam" iddiası ilə Azərbaycanın uğurlarına qarayaxma etməklə məşğuldurlar. Çünki dövr, zaman, ən əsası insanların düşüncələri dəyişsə də, Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Arif Hacılı və bu kimi ermənixislətli məhfumların dəyişməyən düşüncələri elə tarixin zibilxanalarında eşələnməklə məşğuldurlar. Şəxsi ambisiyalarının girovuna çevrilən üzdəniraq özünü "dahi siyasətçi" qiyafəsində görən Əli Əliyev heç vaxt bacarmadığı və bundan sonra da bacarmayacağı siyasətlə məşğul olması gülüncdür. Bu, o Əli Əliyevdir ki, Etibar Məmmədovun qohumu olduğu üçün siyasətə atılan bu "dovşan həkimi" ailə həyatında, qohumluq əlaqələrində etdiyi rəzilliklər kimi, təmsil olunduğu partiyanı da intriqa, hərc-mərclik yuvasına çevirdiyi üçün bir vaxtlar sədri olduğu AMİP-dən qovulub. Bu, o Əli Əliyevdir ki, özünün kimliyindən "xəbərsiz" olsa da, xalq onun keçmişinə yaxşı bələddir. O da bəllidir ki, layiq olmadığı iddiaya düşərək parlament seçkilərinə qatılsa da, seçicilərin heç 1 faizinin belə səsini qazanmamasından dərs almayan Əli Əliyev kimi avantüristlərin millət vəkili olmaq xülyasına düşmələri onların simasızlıqlarının aydın ifadəsi olmasıdır.

## Məqsəd balans yaratmaq deyil, Azərbaycan qarşısında revanş götürməkdir

Və bu gün Əli Əliyev kimilər özünü "siyasətçi" adlandırmaqla populizmlə məşğuldur və onun siyasi fəaliyyətində dövlətə, xalqa, dövlətçilik maraqlarına qarşı aşkar xəyanətin realliqları görünməkdədir. Axı necə ola bilər ki, bu gün iqtisadi tənəzzül, siyasi böhran içində boğulan, məhv olan Ermənistanın bir sıra ictimai-siyasi dairələri, hətta düşmən olduqlarına rəğmən, Azərbaycan qarşısında rüsvayçı məğlubiyyətə uğradığını etiraf edir, amma Əli Əliyev kimi siyasət həvəskarları isə Şanlı Qələbəmizi kölgə altında qoymağa cəhdlər göstərirlər? Bu faktın özü bilavasitə düşmən dəyirmanına su tökmək deyilmi? Əli Əliyevin qaragüruhçuluğu artıq tarixin arxivinə atılmış lazımsız bir əşya xarakteri daşımaqdadır. Əgər oxucularımızın xatirindədirsə, pandemiya ilə mübarizəyə başlayan ilk vaxtlarda da "VİP" sədri özünü dağa-daşa vurmaqla isterik davranışları ilə gündəmdə qalmağı düşünürdü. Amma nə oldu? Ölkədə pandemiya ilə mübarizədə kifayət qədər uğurlar əldə olundu və ümumilikdə ümumbəşəri bəlaya çevrilən koronavirusun vurduğu fəsadlara görə ağlına gələni danışdı. Lakin bu oyunbazlıqları da nəticəsiz qaldı. Həmçinin, ötən ilin 27 sentyabrında başladılan və qələbəmizlə başa çatdırılan 44 günlük Vətən müharibəsindən sonra isə biz yenidən ortalığa düşən Əli Əliyevə əsassız iddiaları ilə normal düşüncəli cəmiyyət qarşısında xal toplamağa çalışmaqla, açıq-aşkar düşmənçilik mövqeyini nümayiş etdirdi. Amma əlbəttə ki, Azərbaycan xalqı kimin kim olduğunu çox gözəl bilir və dərk edir. Xalqımız uzun illər arzu etdiyi ən böyük məqsədinə nail oldu. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusu tərəfindən 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımız işğaldan azad olunub. Azərbaycanın Müzəffər Ordusu şanlı tarix yazdı. Bütün dünya Azərbaycanı qalib ölkə kimi tanıyır.

Ancaq Azərbaycanı istəməyən xarici qüvvələr və onların dəyirmanlarına su tökən, daxilimizdəki Əli Əliyev kimi antimilli qüvvələr Azərbaycanın əldə etdiyi bu uğurları qəbul edə bilmirlər, bununla heç cürə barışa bilmirlər. Artıq onların gücü ancaq sosial şəbəkələrdə izləyicilərini yalan və böhtanlarla dolu, təstiqini tapmayan məlumatlarla manipulyasiya etməyə çatır.

## Əliyar Şirməmmədov: "Əli Əliyev partiyanı diktatorcasına idarə etmək istəyir"

Göründüyü kimi, haqq nazilər, amma üzülməz. Gec-tez həqiqət üzə çıxır. Bu günlərdə Vətəndaş və İnkişaf Partiyasının sədr müavini Əliyar Şirməmmədov Vətəndaş və İnkişaf Partiyasının Siyasi Şurasından və partiya üzvlüyündən istefa verməsi ilə bağlı səbəbləri mətbuatda açıqlayaraq bildirib ki, VİP sədri Əli Əliyev partiyanı diktatorcasına idarə etmək istəyir. O qeyd edib ki, siyasi baxışlarının düzgün gəlməməsi və mənəm-mənəmliyi partiyadan istefa verməsinə səbəbə olub. Əli Əliyevin xain və diktator mahiyyəti balaca uşaq kimi küncə qoyulmalarına səbəb olub. Qeyd edib ki, Əli Əliyevin hakimiyyət hərisliyindən, kreslo sevdasından doğan aqressiv davranışları, radikal çıxışları, xüsusilə də xalq dəstəyinin olmaması onun diktator mahiyyətini ortaya çıxarır. Əli Əliyev vəziyyəti görün hansı həddə çatdırıb ki, 30 illik dost olmuş şəxs onunla yollarını ayırmaq məcburiyyətində qalıb. Belə olan halda bu partiyada sıravi üzv olan şəxslərin vəziyyətini, onların üzləşdikləri problemləri təsəvvür etmək heç də çətin deyil. Bu hal Əli Əliyevin kiçik bir partiyanın belə idarə edilməsində səriştəsiz biri olduğunu deməyə əsas verir və onun fiaskoya uğradığını göstərir. Və müavinin istefa verməsi özünü demokrat, azad söz, şəffaflıq tərəfdarı kimi qələmə verən Əli Əliyevin eyni zamanda ifşası oldu. Və bu gün yaranmış vəziyyət onu sübut edir ki, siyasi fəaliyyətdən başqa bütün qeyri-ciddi və rasional olmayan işlərlə məşğul olan diktator Əli Əliyev "portfel partiyasını" qapatsın. Çünki həqiqət hər zaman yalan üzərində qələbə çalıb. Və qaragüruhun daha bir öndə gedəni Əli Əliyev kimi avantürist riyakarlar anlamırlar ki, dünya inkişaf edir.

Bir sözlə, Əli Əliyev kimi ünsürlərin sosial şəbəkələrdə paylaşımları onların xarici himayədarlarından aldıqları sifarişlərin təqdimatıdır. Xalqa deyil, xarici anti-Azərbaycan dairələrə arxalanan, onların ssenariləri əsasında durub oturan belələrindən ölkəmiz haqqında müsbət fikir gözləmək sadəlövhlük olar. Xalq onlara lazım olan dəyəri verib - tarixin zibilliyi. Bu qiymətdən dərs almaq əvəzinə, daha da anti-Azərbaycan təbliğatı aparmaq sağalmaz xəstəliklərinə işarədir. Həmçinin, bu xəstəliyin adı xəyanətkarlıq, mənəviyyatın itirilməsi, ən əsası satqınlıqdır. Bax, budur istər Əli Əliyev, Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Qənimət Zahid, Vidadi İskəndərli, Sevinc Osmanqızı və ....kimi iblis xislətlilərin niyyəti. Ancaq çi fayda ki, onların bu istəyilə bir nəticə verməyəcək. Çünki satqınçılıq və xəyanətin ömrü az olur. Məgər bu reallıq dəfələrlə təsdiqini tapmayıbmı?

***Rəfiqə HÜSEYNOVA***

SON SƏHİFƏ
SƏS
20 noyabr
2021-ci il

# Qobustanda insan sümükləri tapılıb

Noyabrın 19-u saat 10 radələrində Qobustan rayonu Dərəkənd kəndi ərazisində insan skeleti sümüklərinin aşkar edilməsi faktı ilə bağlı rayon prokurorluğuna məlumat daxil olub. Qobustan rayon prokurorluğundan SİA-ya verilən məlumata görə, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və insan skeleti sümüklərinə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilib.



Hazırda meyitin şəxsiyyətinin və ölüm səbəbinin müəyyən edilməsi istiqamətində rayon prokurorluğunda araşdırma aparılır.

# Uşaqlar təhlükəsiz internetlə necə təmin olunmalıdır?

***Gündəlik həyatda böyüklər üçün zəruri olan internetdən istifadə, xüsusilə uşaqlıqda lazımi nəzarət təmin edilmədikdə mühüm problemləri də gətirir. Ailələrin internetdən istifadələrinin şüurlu olması və uşaqların rəqəmsal dünya ilə əlaqələrini məhdudlaşdırmaq üçün lazım gəldikdə ekspert dəstəyi alması böyük əhəmiyyət kəsb edir.***

### Uşaqları internetdən tamamilə məhrum etməyin

Uşaqların internetdən istifadə səriştəsi, planşet və smartfon kimi texnoloji cihazlara yiyələnmələri istedadlı sayılsa da, bu vəziyyət intellektlə düz mütənasib deyil. Uşaqları internetdən tamamilə uzaqlaşdırmaq və ya texnoloji cihazları qadağan etmək və ya onları tamamilə azad etmək düzgün deyil. İdeal yol uşaqların yaşına, internet məzmununa və müddətinə uyğun monitorinq mexanizmi yaratmaqdır. Beləcə uşaq həm inkişaf etməkdə olan dünya ilə ayaqlaşacaq, həm də texnologiyaya aludə olmayacaq.

### Texnologiya asılılığı uşaqları təcrid edir

Texnologiya asılılığında və xüsusilə də sıx ekrana məruz qalan uşaqda yaşa görə fərqli əlamətlər meydana gəlir. Sonra bu vərdiş halına gəlir. İnternet və texnologiya asılılığı olan uşaqda dil və nitq qabiliyyəti ləngiyə bilər, hər çağırışda cavabsız qala bilər, böyüdükcə diqqətsizlik, hirslə mübarizə problemi yarana bilər, valideynlər və ətraf mühitlə münasibətlərə mənfi təsir göstərə bilər və bəzi digər problemlər yaşaya bilər. Yeniyetməlik dövründə introversiya, sosial mühitlərdən uzaq olmaq və ünsiyyətdə çətinlik yarana bilər.

### Nəzarətli internet istifadəsi vacibdir

2 yaşından kiçik uşaqların inkişaf prosesləri baxımından internet, televizor və ya kompüterlə qarşılaşması uyğun deyil. Məktəbəqədər yaş qrupu üçün gündə 30 dəqiqədən çox olmayan internet istifadəsi kifayətdir. İbtidai təhsilin ilk 4 ilində ev tapşırığından başqa, oyunlara və əyləncələrə hər gün 45 dəqiqə vaxt ayrıla bilər. Sonrakı illərdə həftə sonları daha çevik olsa da, gündə 1 saat istifadə etmək məqsədəuyğundur. Orta məktəb çağında gündə 2 saat kifayətdir. Valideynlərin uşaqları anlamaq üçün məzmunu, eləcə də internetdə keçirdikləri vaxtı izləmələri vacibdir. Uşaqlara nəzarətsiz internet istifadəsinin zərərlərini izah etməyə çalışmaqdan qaçınmaq olmaz.

Uşağınızın internetdən asılı olmasına imkan verməyin!

**1.** Uşaqları rahatlaşdırmaq, susdurmaq, qidalandırmaq üçün smartfonlar/planşetlər və s. kimi alətlərdən heç vaxt istifadə etməyin

**2.** Yol xəritəsini təyin edərkən uşağınızı tanımağa və onun niyə asılı olduğunu anlamağa çalışın.

**3.** Uşağınızın ehtiyaclarını görməyə çalışın. Həyatda, ailə münasibətlərində və sosial mühitdə qidalana bilməyən, tamamlana bilməyən amilləri üzə çıxarın.

**4.** Gündəlik internet istifadə saatlarını müəyyənləşdirin.

**5.** Həftəlik internet istifadə qrafiklərini hazırlayın, ona uyğun plan qurun.



**6.** Dəstək qrupları və ya ailə terapiyası kimi üsulları həyata keçirin.

**7.** Uşaqlarınızı onların istedad və maraqlarına uyğun idmana, incəsənətə və hobbilərə yönləndirin.

**8.** Etmək istədiyi, lakin fürsət tapa bilmədiyi işləri dəftərçəyə yazmasını istəyin. İnternetdən istifadə etmək istəyi güclü olduqda, ondan yazdığı şeylərdən birini etməsini xahiş edin.

**9.** Uşağınızın dostluqlarını dəstəkləyin, onları bir araya gətirəcək bir fəaliyyət planlaşdırın.

**10.** Uşağınızın kompüterdən istifadəsini yoxlayın və virtual mühitdə onun dostları ilə tanış olun.

**11.** Kompüterinizdə təhlükəsiz internet proqramlarının olmasına diqqət edin.

**12.** Uzun müddət kompüterdən istifadə edən uşağınızın qarşısını ala bilmirsinizsə, mütəxəssis yardımı alın.

SİA məsələ ilə bağlı araşdırma apararaq uşaqların təhlükəsiz internetlə təmin edilməsi mövzusunda texnoloq və sosioloqların fikirlərini alıb.

İKT üzrə ekspert Rəşad Cəfərov: "Toxunduğunuz mövzu dünəndən başlayan, bu gün də həll olunmayan və sabahımız üçün ciddi problemləri yaradacağını açıq göstərən bir mövzudur. Çox təəssüflə qeyd edirəm ki, ölkədə bu istiqamətdə görülməli işlər hələ ki, sənədlərdə, tədbirlərdə söylənilən çıxışlarda qalmaqdadır. Tədbirlər görülməsə uşaqlar ciddi şəkildə "internet pandemiyasından" əziyyən çəkəcəklər. Təkcə uşaqlar yox, elə böyüklər də. Bunun qarşısını almaq üçün ölkədə müxtəlif fikirlər səsləndirilir, bəzi addımlar atılır ki, düşünürəm bu addımlarla da fəsadların qarşısını almaq çətin olacaq. Misal üçün provayderlərin təqdim etdiyi halal internetlər, mobil qurğularda quraşdırılan bəzi tətbiqlər, "ağ siyahılar", xüsusi domen zonalar və s. İnternet o qədər əlçatandır ki, uşaqlar bunu hər zaman hər yerdə əldə edəcəklər. Düşünürəm ki, uşaqları, elə böyükləri, valideynləri də internetdə onları hansı təhlükələrin gözlədiyi barədə məlumatlardırmaq lazımdır. Xüsusən cinayətkarların, zorakı insanların hədəfinə tuş gələ bilmələri hər kəs bilməli, təhdidləri müəyyən etməyi bacarmalıdırlar. Bax, məncə görülən tədbirlər əsasən bu istiqamətdə olmalıdır. Hər bir işin, addımın öz mədəniyyəti var. Növbədə durmaq, avtomobil sürmək, qonaq qarşılamaq, bax, internetə də belə yanaşma ilə baxmaq lazımdır. İstifadəçilərdə internetdən istifadə mədəniyyəti formalaşmalıdır. Burada onları gözləyən təhlükələr və ya qazana biləcəkləri müsbət məqamları istifadəçi abqacadan bilməlidir. İnternet də bir imtahandır, uşaqlarımız ora hazırlıqlı girməlidirlər ki, pis qiymət almasınlar. Uşaqların bu təhlükədən qorunmasını təkcə valideynin üzərinə qoymaq olmaz. Bunun üçün səmərəli, bir daha qeyd edirəm, səmərəli proqramlar müvafiq dövlət qurumları tərəfindən görülməlidir".

Sosioloq, Sağlam Cəmiyyət Hərəkatının sədri Lalə Mehralı: "Bunun üçün filter proqramlar var. Həmçinin, "YouTube Kids" deyilən proqramları da tətbiq etmək olar. Validеyn nəzarəti lazımdır. Xüsusilə də azyaşlı uşaqların smartfondan sərbəst istifadəsinə məhdudiyyətlər qoymaq lazımdır. Doğrudur, virtual dərslərə qoşulmaq üçün uşaqların internetlə təminatını biz özümüz istəyərək həyata keçiririk. Azad internet və telefonlarının olmasını məcbur olub təmin etdik. Yəni, dərs üçün bunu etdik. Amma yenə də nəzarət mütləqdir".

***Ayşən Vəli***

*47 yaşlı ispan aktrisa Penelopa Krus "Variety" jurnalının yeni nömrəsinin qəhrəmanı olub.*




Milli.Az qafqazinfo-ya istinadən xəbər verir ki, o, fotosessiya etdirib və nəşrin müxbirinə müsahibə verib. Krus kinodakı işi və şəxsi həyatından danışıb.

Venesiya kinofestivalında "Paralel analar" filmindəki işinə görə "Ən yaxşı qadın rolu" nominasiyasında mükafat alan aktrisa etiraf edib ki, həm onun, həm də həyat yoldaşı üçün prioritet məsələ uşaqlardır - 10 yaşlı Leonardo və 8 yaşlı Leo.

Koronavirus pandemiyası Krusa həyatına və işinə başqa cür baxmağa kömək edib. İndi o, bütün diqqətini kiçik filmlərin yaradılmasına yönəldib. Buna baxmayaraq, Krus Hollivudla ayrılmağa tələsmir və hazırda "Kod 355" filmində çəkilir. Həmin ekran işində Cessika Çesteyn, Lüpita Nionqo, Diana Krüqer və digər ulduzlar da iştirak edir.

# Binəqədidə "Toyota" piyadanı vurub öldürdü



Binəqədi rayonu ərazisində yolu keçən piyada Bakı şəhər sakini M.Fərhadovun idarə etdiyi "Toyota" markalı avtomobillə vurulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin şəxs aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən əməliyyat-axtarış tədbirləri aparılır.

# 4 evdən oğurluq edən şəxs tutulub



Binəqədi rayonunda dörd evdən oğurluq edən şəxs məsuliyyətə cəlb olunub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müxtəlif vaxtlarda dörd evin həyətindən su sayğacları, elektrik naqili və təmir-tikinti alətləri oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini R.İsgəndərov rayon polis idarəsinin 40-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı Binəqədi Rayon Polis İdarəsi tərəfindən təhqiqat davam edir.

## ELAN

Nefçala rayon Elton Həbibov adına 4 saylı orta məktəbin 2009-cu il məzunu Abdullayev Xoşəli Zaleh oğluna verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**